YENİ AZƏRBAYCAN PARTİYASI

**30 ilYeniləşən, inkişaf edən, təkamülləşən Yap yeni proqramla möhtəşəm zirvələrə doğru**
8

# “Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər”



Səs
№ 020 (6461) 3 fevral 2022-ci il. Qiymәti 60 qәpik



2

*Dünən Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib. Prezident İlham Əliyev Forumda giriş nitqi söyləyib.*

# Ermənistanda anti-Rusiya etirazları şiddətlənir

14



## Tahir Budaqov: “Azərbaycan gəncləri böyük Zəfərimizin qazanılmasında əsas söz sahibi oldular”


4

*2022-ci il partiyamızın həyatında çox əlamətdar bir ildir. Bu il Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illik yubileyini qeyd edəcəyik. Yubiley ili ilə bağlı YAP Mərkəzi Aparatı tərəfindən xüsusi Tədbirlər Planı hazırlanıb. İl ərzində silsilə tədbirlər davam edəcək”.*


7

## Rus ekspert: “Njde qəhrəman deyil, faşist canisidir, onun təbliği yolverilməzdir”

*Xəbər verdiymiz kimi, yanvarın 28-də çoxsaylı şikayətlərdən sonra Moskvada 3-cü Reyxlə əməkdaşlıq etmiş faşist əlaltısı Qaregin Njde haqqında filmin ictimai nümayişi dayandırılıb. Şou Rusiya Erməniləri İttifaqının təşəbbüsü ilə Ermənistan ordusunun yaradılmasının 30-cu ildönümünə həsr olunmuşdu. Lakin filmin nümayişindən əvvəl "Rusiya veteranları"*



## Nikolun “peşəkar ordu” xülyası

*...Bu təzə müdafiə naziri Suren Papikyan da özünə toy eləməyə vaxt tapmışdı... Ermənistan Silahlı Qüvvələrinin yubileyi ərəfəsində dəm-dəsgahlı şadyanalıq eləməyi elə bil, buna deyən olmuşdu.*

## Təhsil müəssisələri bağlanır?



“Təhsillə bağlı qapanmaların olması məsələsi hal-hazırda gündəmdə deyil. Sadəcə olaraq, üçüncü doza peyvəndin olması ilə bağlı orta və ali ixtisas təhsil müəssisələri 18 yaşın üzərində olan şəxslərə tələb var”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert...
16

## Kivi visseral piydən azad olmağa kömək edir

Aparılmış tədqiqat göstərib ki, C vitamini ilə zəngin olan kivi visseral piyin ərimə sürətini artırır. Visseral piy qarın boşluğunda yerləşir və orqanizmdə hormonların işini tənzimləyir. Onun həddindən artıq olması potensial təhlükələrlə nəticələnə bilər: xüsusilə, ürək xəstəlikləri riski artır, çünki visseral piyin tərkibinə spesifik kimyəvi maddələr daxildir.


16



## “Paşinyan Türkiyəyə rəqiblərini zəiflətməklə gedir”
13

“Mart ayında Türkiyənin Antalya şəhərində Diplomatiya Forumu”nun keçirilməsi planlaşdırılır. Bu forumda Türkiyə Azərbaycan və Ermənistan...




## Zamanın çağırışına cavab verən Azərbaycan gəncləri
10

*Müasir Azərbaycan gəncliyi yaşadığımız zamanın ən məsuliyyətli bir dövrünü yaşayır...*

# "Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər"

***Dünən Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib. Prezident İlham Əliyev Forumda giriş nitqi söyləyib. Prezident İlham Əliyev giriş nitqində qeyd edib ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Ulu Öndər Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur: "Bu gün Azərbaycanda Gənclər Günü qeyd edilir. Bu münasibətlə sizi və bütün Azərbaycan gənclərini ürəkdən təbrik etmək istəyirəm.***




İyirmi beş il bundan əvvəl ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edildi və o gündən bu günə qədər fevralın 2-də biz bu günü qeyd edirik. Ondan bir il əvvəl isə Heydər Əliyevin təşkilatçılığı və təşəbbüsü ilə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasında idi. O gündən bu günə qədər bir nəsil dəyişdi və bu gün bu salonda oturan gənclər o vaxt ya hələ dünyaya gəlməmişdi, ya da balaca uşaqlar idi. Bir nəsil dəyişdi və Azərbaycan dəyişdi.

Əgər ovaxtkı Azərbaycan reallıqlarına nəzər salsaq görərik ki, o vaxt vəziyyət çox ağır idi. Müstəqilliyimizin cəmi 6 yaşı var idi, Azərbaycan müstəqil həyata təzə-təzə başlayırdı. Ölkə qarşısında çox böyük, ciddi, fundamental problemlər dayanmışdı. Birinci Qarabağ müharibəsindən cəmi üç il keçmişdi və böyük ümidlər var idi ki, beynəlxalq aləm, vasitəçilər tezliklə Qarabağ məsələsini həll edəcək, ədaləti bərpa edəcək. Belə ümidlər var idi və bütün digər sahələrdə vəziyyət çox ağır idi. Siz gənclər təbii ki, o illəri görməmisiniz. Ancaq bu, bizim tariximizdir və bizdən sonra gələn nəsillər bu tarixi bilməlidir, unutmamalıdır. Çünki məhz düzgün təhlil apararkən, tarixdən ibrət götürərkən biz inamla irəliyə gedə bilərik.

O vaxt Azərbaycan özünü dünya arenasında hələ tam təsdiq etməmişdi. Azərbaycan reallıqları demək olar ki, dünya ictimaiyyəti üçün bəlli deyildi. Bizə qarşı artıq o vaxt və bu günə qədər fəaliyyət göstərən erməni lobbi təşkilatları Azərbaycan haqqında yalan, təhrif edilmiş məlumatlar ötürürdülər. Əlbəttə ki, o vaxt beynəlxalq aləmdə layiqli yer tutmaq öndə duran məsələlərdən biri idi.

## İlham Əliyev: "Şuşanın düşmənə təhvil verilməsi xəyanət idi"

## "Yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur"





İqtisadi vəziyyətə gəldikdə isə deyə bilərəm ki, o vaxt iqtisadiyyat anlayışı, ümumiyyətlə, yox idi. Çünki Sovet İttifaqı dağılandan sonra Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam bərqərar olmamışdı, özəl sahibkarlıq çox aşağı səviyyədə idi. Dövlət qurumları isə hələ yeni idarəetmə üsuluna yiyələnə bilməmişdilər. İqtisadi tənəzzül hər yerdə özünü büruzə verirdi və iqtisadi gələcəyimiz də prinsipcə sual altında idi. Neft-qaz kontraktları təzəcə imzalanmışdı. 1994-cü ildə bax bu salonda, bax bu yerdə "Əsrin kontraktı" imzalanmışdı və hamımıza böyük ümidlər vermişdi. Ancaq o vaxt bu layihənin icrasını proqnozlaşdırmaq, əlbəttə ki, mümkün deyildi. Ümidlər var idi, amma əminlik yox idi. 1996-cı ildə "Şahdəniz" qaz yatağı üzrə kontraktın imzalanması da əlavə ümidlər verdi, amma Gənclər Günü təsis ediləndə, - 25 il bundan əvvəl, - əlbəttə ki, bu layihələrin ölkəmizə nə dərəcədə xeyir verəcəyini heç kim proqnozlaşdıra bilmirdi.

Yüz minlərlə məcburi köçkün ağır vəziyyətdə yaşayırdı, öz doğma torpaqlarından qovulmuş insanlar çadırlarda, vaqonların altında, uyğunsuz binalarda yaşayırdı. Yəni, bu idi ovaxtkı mənzərə. Üstəgəl nizami ordu yaradılmamışdı və nizami ordunun olmaması Birinci Qarabağ müharibəsindəki məğlubiyyətə gətirib çıxardı. Bütün digər xarici amillərlə yanaşı, Ermənistana göstərilən böyük xarici maliyyə və hərbi dəstəklə yanaşı, onu da deməliyik ki, o vaxt Azərbaycanda nizami ordu yox idi.

Bax, belə bir vəziyyətdə Heydər Əliyev Gənclər Gününü təsis edir və xatırlayıram, o vaxt bəziləri - yəni hakimiyyətdə olanları nəzərdə tuturam - deyirdilər ki, indi bu, əsas məsələ deyil, ölkə qarşısında digər vacib məsələlər var, onlar həll olunmalıdır. Ancaq Ulu Öndər həmişə olduğu kimi, uzaqgörənlik göstərərək məhz gənclərə üz tutdu, onları dəvət etdi, onlara öz tövsiyələrini verdi və gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktiki addımlar atıldı. Əgər biz bu kiçik bir tarixi ekskursa nəzər salsaq görərik ki, Heydər Əliyev nə qədər haqlı idi. Çünki bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır.

Ardı Səh. 3

# “Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər”

*"Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar"*

Əvvəli-Səh-2

Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur.”

Prezident İlham Əliyev qeyd edib ki, bu gün Azərbaycan təbii ki, inamla irəliyə baxır, ölkə qarşısındakı əsas vəzifələr öz həllini tapmışdır: ”Mən, əlbəttə, Qarabağ məsələsini nəzərdə tuturam. Digər sahələrdə inamla addımlayırıq. Mən son illərin əsas hadisələrini sadalamağa başlasam, bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm, indiki gənclər üçün imkanlar təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.”

Daha sonra Prezident İlham Əliyev bildirib ki, bizim üçün isə Şuşa bir müqəddəs rəmz idi. Bizim bir çox şəhərlərimiz, demək olar ki, ölkəmizin hər yeri xüsusi tarixi əhəmiyyətə malikdir: ”Amma Şuşanın Azərbaycan xalqı üçün əhəmiyyəti təkcə bu coğrafi mənzərə ilə məhdudlaşmırdı. Şuşanın çox böyük rəmzi mənası var idi. Təəssüf hissi keçirdim ki, bizim böyüklərimiz bu günü görməyiblər.”



Şuşanın azad olunması xəbərindən qürur hissi keçirdiyini söyləyən Prezident deyib: ”Qürur hissi keçirdim ki, biz tarix qarşısında öz vəzifə borcumuzu yerinə yetirdik. Təəssüf hissi keçirdim ki, bizim böyüklərimiz bu günü görməyiblər. Çünki on minlərlə, bəlkə də yüz minlərlə azərbaycanlı həyatdan narahat gedib - Şuşanı görmədən, azadlığı görmədən. Şuşa ermənilər üçün yad şəhər idi. Əgər bu, erməni şəhəri idisə, nə üçün belə bərbad vəziyyətdədir? Nə üçün bu şəhərə baxmamısınız? Nə üçün bütün bulaqları qurutmusunuz?. Biz Şuşanı azad edəndə orada cəmi 1500 adam məskunlaşmışdı. Düzdür, biz artıq Şuşaya yaxınlaşanda onlar oradan çıxdılar. Amma orada yaşayanların da 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Yaxşı, bu, erməni şəhəridirsə, niyə burada yaşamırsan? Niyə belə bərbad vəziyyətdədir? Niyə şəhəri məhv edirdiniz bu illər boyu?”, - deyə dövlətimizin başçısı bildirib.





”O vaxt hakimiyyətdə olan adamlar da Şuşanı azad etmək əvəzinə boş-boş vədlər verirdilər ki, bu gün-sabah Şuşa alınacaq, Şuşa bizdədir və sair. Ancaq faktiki olaraq Şuşanın düşmənə təhvil verilməsində onların birbaşa əli olub. Bu, bir xəyanət idi, satqınlıq idi. Bu gün Şuşada olan hər bir insan görür ki, o şəhəri götürmək, demək olar, mümkün deyildi. Biz o Şuşanı necə götürmüşüksə, bu, ayrı dastandır, qəhrəmanlığın zirvəsidir, mənəvi-fiziki gücün sintezidir. Bu, fədakarlığın zirvəsidir”, - deyə Prezident vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar. Dövlətimizin başçısı deyib: ”Bu gün bizim qəhrəman gənclərimiz - dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunə olublar, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar. Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq, eyni zamanda, hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da böyük tarixi nailiyyətlərə imza atmışıq. Əlbəttə, problemlər də var, çatışmazlıqlar da var. Bu çatışmazlıqlarla mübarizə aparırıq və aparacağıq. Amma əgər ümumiyyətlə bu tarix kəsiyində bu dövrü təhlil etsək görərik ki, biz tarixi nailiyyətlərə imza atdıq”, - deyə dövlətimizin başçısı qeyd edib.

”Azərbaycanda 29 yaşına qədər insanlar gənclər sayılır. Əgər belə demək mümkündürsə, bu gün ən yaşlı gəncin mən Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi. Yəni, bu, reallıqdır. Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir.

Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular”, - deyə Prezident bildirib. Sonra Forum işini müzakirələrlə davam etdirib.

# Şuşa Bəyannaməsinin əhəmiyyəti nədən ibarətdir?



”Türkiyə və Azərbaycan arasında indiyə qədər müxtəlif sahələri əhatə edən razılaşmalar, həm də ümumi dostluq, əməkdaşlıq və yardım haqqında müəyyən sənədlər, sazişlər, bəyannamələr imzalanmış olsa da Şuşa Bəyannaməsi öz məzmun etibarı ilə tamamilə yeni gücə malikdir. Bu bəyannamə iki ölkənin qardaşlığının və əməkdaşlığının daha fundamental şəkildə aparılmasını müəyyənləşdirən hüquqi sənəd nümunəsidir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. Onun sözlərinə görə, bu sənədin artıq hər iki ölkənin parlamentində ratifikasiyadan keçməyə hazırlanması və Azərbaycanda artıq ratifikasiyadan keçməsi bir daha sübut edir ki, onun beynəlxalq hüquq və əməkdaşlıq sənədi kimi əhəmiyyəti var: ”Şuşa Bəyannaməsi indiyə qədər iki ölkənin arasında imzalanmış digər sənədlərdən fərqli olaraq əməkdaşlığın rəsmi hüquqi əsaslarını qanun səviyyəsinə qaldırır və daha da gücləndirir”.

Aydın Quliyev sözlərinə belə davam edib: ”Türkiyə ilə Azərbaycan arasında iqtisadi, siyasi, təhlükəsizlik və müdafiə sahəsində siyasətin yeni mərhələsinin başlanmasında Şuşa Bəyannaməsi olduqca böyük rol oynayacaq. Təkcə elə onu qeyd edək ki, iki ölkənin təhlükəsizlik şuralarının birlikdə iclaslarının keçirilməsinin məhz bəyannamədə təsbit edilməsi o deməkdir ki, indiyə qədər biz əgər hərbi sahədə iki ölkənin əməkdaşlığına rast gəlirdiksə, bundan sonra iki ölkənin artıq təhlükəsizlik sahəsində, hətta qüvvələri birləşdirməsinə qədər müttəfiqlik münasibətlərinə qədər görüləcək işlərin əsasları qanuni şəkildə müəyyən olunur”.

Şuşa Bəyannaməsi Türkiyə Azərbaycan əməkdaşlığını artıq hərtərəfli strateji müttəfiqlik səviyyəsinə qaldırır. Burada tam cəsarətlə demək mümkündür ki, artıq Azərbaycanla Türkiyə arasında hərbi müttəfiqliyin, hərbi müdafiə sahəsində əməkdaşlığın bünövrəsi qoyulur. Bundan sonra Türkiyə ilə Azərbaycanın hərbi, siyasi müttəfiqliyi və əməkdaşlığı tamamilə yeni məzmun kəsb edəcək.

Qarabağ müharibəsi davam etdiyi müddətdə belə əməkdaşlıqdan danışmaq çox çətin idi. Çünki Ermənistan bundan hər iki dövlətə qarşı istifadə və şantaj edə bilərdi. Amma Qarabağ münaqişəsinin başa çatmasından sonra Şuşa Bəyannaməsinin imzalanması tarixi bir zərurət idi və çox yaxşı ki, hər iki ölkənin rəhbərliyi bu zərurətə lazımi dəyəri verə bildilər. Şuşa Bəyannaməsi Vətən müharibəsindən sonra Azərbaycan və Türkiyənin diplomatiya sahəsində ən böyük uğurlarından biri sayıla bilər. Çünki bu tək diplomatik sənəd deyil”.

***Ayşən Vəli***

*"2022-ci il partiyamızın həyatında çox əlamətdar bir ildir. Bu il Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illik yubileyini qeyd edəcəyik. Yubiley ili ilə bağlı YAP Mərkəzi Aparatı tərəfindən xüsusi Tədbirlər Planı hazırlanıb. İl ərzində silsilə tədbirlər davam edəcək". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.*



# Tahir Budaqov: “Azərbaycan gəncləri böyük Zəfərimizin qazanılmasında əsas söz sahibi oldular”

O bildirib ki, biz belə tədbirləri dövətimizin, xalqımızın həyatındakı əlamətdar hadisələrlə əlaqələndiririk. 25 ildir ki, ölkəmizdə 2 fevral-Azərbaycan Gəncləri Gününün qeyd olunduğunu deyən YAP Sədrinin müavini gənclərin hər bir ölkənin inkişafında xüsusi rola malik olduğunu söyləyib: ”Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, ”Azərbaycan gənclər ölkəsi, gənclər isə Azərbaycanın gələcəyidir”. Gənclər siyasəti ilk növbədə milli maraqlara, milli adət-ənənələrə söykənərək, eyni zamanda, müasirliyi, dünyada gedən qloballaşma proseslərinin müsbət tərəflərini özündə əks etdirərək inkişafa xidmət etməlidir. Azərbaycanda gənclər siyasətinin əsası Ulu Öndərimiz tərəfindən qoyulub. Bilirsiniz ki, hələ 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradılıb. Bununla da, dövlət gənclər siyasətini həyata keçirən qurum olaraq bu sahəyə xüsusi diqqətin göstərilməsi istiqamətində mühüm addımlar atıldı. Ardınca 1997-ci ildə 2 fevral-Azərbaycan Gəncləri Günü təsis edildi. O zamandan bu günə qədər bu əlamətdar bayramla əlaqədar tədbirlər davam edir. Eyni zamanda, ulu öndər Heydər Əliyevin imzaladığı ”Dövlət gənclər siyasəti haqqında” Fərmanda gənclər siyasətinin bütün konseptual əsasları, istiqamətləri əksini tapdı”.

Tahir Budaqov qeyd edib ki, Ulu Öndərin Azərbaycan dövləti, xalqı qarşısında ən böyük xidmətlərindən biri ölkədə siyasi varisliyin təmin edilməsidir: ”Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Azərbaycanın tarixində yeni bir mərhələ başlandı. Gənclər Prezident İlham Əliyevin hər zaman diqqət mərkəzində olub. Ölkəmizdə gəncliyin inkişafı ilə əlaqədar cənab Prezident tərəfindən mühüm qərarlar qəbul olunub. Prezident İlham Əliyev tərəfindən Gənclər Fondunun yaradılması, gənclər üçün Prezident mükafatının təsis edilməsi, həmçinin gəncliyin inkişafına xidmət edən 10-a yaxın Dövət Proqramının qəbul olunması bu baxımdan böyük əhəmiyyətə malikdir. Bütün bu işlərin əsas istiqamətlərindən biri də təbii ki, gənclərimizin vətənpərvərlik ruhunda, dövlətə, xalqa sədaqət ruhunda böyüməsidir ki, bu siyasət özünü 2020-ci ildə böyük Zəfərimizlə təsdiqlədi. Məhz Prezident İlham Əliyevin siyasi rəhbərliyi dövründə yetişən gənclərimiz qələbəmizin qazanılmasında əsas söz sahibi oldular və torpaqlarımızı işğaldan azad edərək həm tarixi ədaləti, həm də Azərbaycan dövlətinin ərazi bütövlüyünü təmin etdilər. Bununla da Azərbaycan xalqının qürurlu xalq olduğunu təsdiqlədilər. Tarixi Zəfərimizdən sonra 2 fevral - Gənclər Gününün tamamilə yeni bir ab-havada keçirilməsi ənənəsi yaranıb. Bu ənənə bundan sonra da davam edəcək”.

# Prezident mükafatçısı təəssüratlarını SİA ilə bölüşdü: “Fəxrlə qeyd etmək istəyirəm ki, bu gənclər arasında mən də varam”

“Əvvəlcə fürsətdən istifadə edərək bütün gəncləri və gənclər sahəsində fəaliyyət göstərən hər bir həmkarımı Gənclər Günü münasibətilə təbrik edirəm. Onlara yeni uğurlar, yeni nailiyyətlər arzu edirəm. Bildiyiniz kimi, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi gənclər siyasətinin nəticəsidir ki, biz gənclər olaraq dövlətimizin bizə hərtərəfli dəstək və qayğısını əsaslı şəkildə görə bilirik”. Bu sözləri SİA-ya açıqlamasında Prezident İlham Əliyevin Sərəncamı ilə 2022-ci il Gənclər üçün Prezident mükafatına layiq görülmüş şəxs, ”ASAN Könüllüləri” Təşkilatının sədri Emiliya Bayramova deyib.

Onun sözlərinə görə, gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər və könüllü təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan imkanlar bu sahəyə böyük diqqətin bariz nümunəsidir: ”Bu gün Azərbaycan gəncləri vətənpərvərdir, savadlıdır, fəaldır və mübariz gənclərdir.

Hər il olduğu kimi bu il də elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, innovasiya və digər sahələrdə fərqlənən 10 gənc prezident mükafatına layiq görülmüşdür. Fəxrlə qeyd etmək istəyirəm ki, bu gənclər arasında mən də varam. Artıq 5 ildir ki, gənclər və könüllülər sahəsində fəaliyyət göstərən, beynəlxalq platforma və tədbirlərdə ölkəmizi təmsil edən bir gənc olaraq əminliklə deyə bilərəm ki, Azərbaycanda gənclərin bütün sahələrdəki fəaliyyəti ən yüksək şəkildə dəstəklənir. Biz də gənclər olaraq dövlətimizin ali diqqət və qayğısını daim öz üzərimizdə hiss edərək




göstərilən etimadı layiqincə doğrultmağa çalışırıq. Eyni zamanda qeyd edim ki, gənclər siyasətinin ən vacib istiqamətlərindən biri də könüllülük fəaliyyətidir”.

Emiliya Bayramova fikirlərinə davam edərək həmçinin qeyd edib ki, könüllülük - vətənə sədaqətin, xalqa və mənəvi dəyərlərə bağlılığın, dövlətə təmənnasız sevginin göstəricisidir: ”Azərbaycanda da könüllülük hərəkatı sistemli şəkildə ASAN Könüllüləri hərəkatından başlamışdır. Bu gün ASAN könüllülərinin sayı artıq 29.000-dən çoxdur. Bu günə qədər ASAN könüllüləri tərəfindən vətənpərvərlik, təhsil, ekologiya, sosial, səhiyyə, mədəniyyət, eləcə də fərdi inkişaf sahələri üzrə 750-dən çox layihə və 5000-dən çox təlim və seminar həyata keçirərək 100.000-dən artıq gənci əhatə etmişdir. Bu gün Azərbaycan Gəncləri Gününün 25 illiyi ərəfəsində mənim timsalımda ASAN könüllülərinin belə bir ali mükafata layiq gördüyü üçün cənab Prezident İlham Əliyevə sonsuz minnətdarlığımızı bildiririk”.

***Arzu Qurbanzadə***

# Bakıda Gənclər Forumu çərçivəsində panel müzakirələri keçirilib




2 Fevral - Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu çərçivəsində panel müzakirələri keçirilib. SİA xəbər verir ki, müzakirələrdən əvvəl ölkə həyatının müxtəlif sahələrində fərqlənən gənclər mükafatlandırılıb.

Müzakirələrdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin baş məsləhətçisi Soltan Hacıyev, Milli Məclisin deputatı Tural Gəncəliyev, Medianın İnkişafı Agentliyinin əməkdaşı, Vətən müharibəsi iştirakçısı Vasif Dilavərzadə, iş adamı Nadir Novruzi və tanınmış alpinist İsrafil Aşırlı gənclərə həyat hekayələrindən və təcrübələrindən danışıb, onlara hər zaman mətin olmağı tövsiyə ediblər.




# Gənclik cəmiyyətin aparıcı qüvvəsidir

***Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Gənclik eyni zamanda daim axtarışda olan və yeniliyi sevən qüvvədir. Bu gün Azərbaycan gəncləri vətənpərvər ruhda, sağlam düşüncədə yetişməkdə davam edir. Gənclərimiz vətənə xidmət etməyi özlərinə vəzifə və ən ali borc bilirlər. Yetişən vətənpərvər gənclik torpaqlarımızın işğaldan azad olunmasında Vətən savaşında xüsusi rol oynadılar. Gəncliyimiz düşmənlərə həm arxa cəbhədə, həm də ön cəbhədə layiqincə cavab verərək onları susdurdular.***

Bu qələbə dövlətimizin apardığı gənclər siyasətinin məntiqi nəticəsidir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezidentimiz İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilən gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmiz gənclərə böyük inam bəsləyir və gənclərin problemlərinin həll olunmasına böyük önəm verir. Dövlətimizin əsas missiyası etibarlı gələcək nəsilin formalaşmasıdır. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər.

Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər forumu keçirilib. Bu isə dövlətin Azərbaycan gəncliyinə qayğısının göstəricisidir. Forumda Prezident İlham Əliyev iştirak edib və gənclərlə görüş keçirib. Eyni zamanda Prezident gənclər tərəfindən ünvanlanan sualları cavabsız qoymayıb. Prezident İlham Əliyevin görüşündən sonra Gənclər panel müzakirələrdə iştirak ediblər. Forum zamanı gənclərin fikirlərini öyrəndik:



**Cavadzadə Sabrina, Bakı Xoreoqrafiya Akademiyasının 3 kurs tələbəsi, eyni zamanda gənclər mükafatçısı:** "Bu gün bu tədbirə Prezidentimizlə görüşmək üçün yığışmışıq. Mən ilk dəfə idi ki, Prezidentin gənclərlə görüşündə iştirak edirəm. Çox qürur hissi keçirdim, bir az da həyəcan var idi. Prezident İlham Əliyevin gənclərlə səmimi və xoş söhbəti oldu. Prezidentimizə suallarımızı ünvanladıq. Prezident İlham Əliyevin gənclərə diqqəti qayğısı bu gün bir daha özünü büruzə verdi. Müasir Azərbaycan gənci 44 günlük müharibənin qalibi kimi özünü göstərdi. Bizim gənclərimiz həm cəbhədə böyük bir əzm göstərdi, həm də sosial şəbəkələrdə, informasiya məkanında Azərbaycanı layiqincə təmsil etdi”.



**Emil Aslanlı, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin üzvü, eyni zamanda Bakı Ali Neft Məktəbinin əməkdaşı:** ” Prezidentimiz tərəfindən həyata keçirilən gənclər siyasətinin gücüdür ki, bu gün Azərbaycanda milli vətənpərvər gənclər yetişir. Gənclərin Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə dəstəyi bu gün göz qabağındadır. Vətən müharibəsi zamanı Azərbaycan gənclərinin öz canlarından keçməsi və irəli atılaraq Azərbaycan torpaqlarını işğaldan azad etməsi də dövlətin gənclərə etimadının bariz nümunəsidir. Ümumiyyətlə, Cənab Prezidentin gənclərlə olan görüşlərindəki tövsiyələri Azərbaycan gəncləri üçün prioritet istiqamət olmalıdır. Burada Cənab Prezident təhsilə önəmi vurğuladı, eyni zamanda yeni çağırışlara cavab verən gəncliyin yetişməsi üçün tövsiyələri oldu. Bundan başqa gənclərin intellektual səviyyədə inkişafı və asudə vaxtlarının səmərəli təşkili, zərərli vərdişlərdən uzaq durmaq və idmanla daim məşğul olmaqla bağlı Cənab Prezidentin gənclərə tövsiyyələri oldu”.

**Azər Əliyev, Gənclər Təşkilatları Milli Şurasının sədri, gənclər üzrə prezident mükafatçısı:** ” İlk öncə onu xüsusilə vurğulamaq istərdim ki, bu formatda keçirilən görüş kifayət qədər təqdirəlayiqdir. Çünki siz də müşahidə etdiniz ki, onlarla gəncin sualı birbaşa Prezidentimiz tərəfindən cavablandırıldı. Bu cavablar sırf Cənab Prezidentin zəngin təcrübəsinə söykənərək deyi fikirlər idi. Bu cavablar gənclərimiz üçün yol xəritəsi oldu. Müəyyən mənada gənclərimizin fikirləri aydınlandı.



Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətin gənclər siyasətinin layiqli davamçısı Azərbaycan Prezidenti, gənclərin dostu Cənab İlham Əliyevdir. Bu gün bütün gənclərimiz dövlətimizin diqqət və qayğısı ilə əhatə olunubdur. Tam səmimi qeyd edim ki, belə bir mükafatı alacağımı heç vaxt düşünməzdim. Çox qürurluyam və sevincliyəm ki, Cənab Prezident tərəfindən Gənclər mükafatına layiq görülmüşəm. Mükafatın birbaşa Prezident tərəfindən təqdim olunması böyük bir qürurdur”.




**Ağarza Elçinoğlu Həsənquliyev, Bakı Dövlət Universitetinin IV kurs tələbəsi:** ”Ulu öndər Heydər Əliyev tərəfindən təsis edilən Gənclər Günü bu gün Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Gənclər gününün 25-ci ilini qeyd etdik. Prezidentimiz bu gün üçün gənclər arasında forum təşkil etdi. Prezident İlham Əliyev gənclərə imkan yaratdı ki, özləri Ona suallar ünvanlasın. Prezidentimiz gənclərə tövsiyə verdi və gənclərin fikirlərini dinlədi. Azərbaycan gəncliyi bu gün 44 günlük Vətən müharibəsində qalibiyyətin əldə olunmasında xüsusi rol oynayıblar. Gəncliyimiz nəinki ön cəbhədə həm də arxa cəbhədə də müstəsna rol oynayıblar.

**Azər Abdullazadə, Vətən müharibəsi qəhrəmanı:** ”Cənab Prezidentin gənclərlə görüşündə ilk öncə tövsiyyələri bundan ibarət oldu ki, gənclər daim vətənpərvər ruhda olmalıdır. Prezidentimizin uğurla davam etdirdiyi gənclər siyasətinə Vətən müharibəsində bir daha şahidi olduq. Azərbaycan gəncliyinin nə qədər könüllü və cəsur olduğu bir daha sübut olundu. Mən də Azərbaycan gənci olaraq



fəxr edirəm ki, 44 günlük vətən müharibəsində iştirak etmişəm. Cənab Prezident daim gənclərin yanındadır. Bu cür tədbirlər ardıcıl olaraq davam etdirilməlidir. Cənab Prezident gənclərə həmişə diqqət və qayğı göstərir. Eyni zamanda gənclərin problemlərinin həll olunması üçün çalışır”.

Müzakirələrdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin baş məsləhətçisi Soltan Hacıyev, Milli Məclisin deputatı Tural Gəncəliyev, Medianın İnkişafı Agentliyinin əməkdaşı, Vətən müharibəsi iştirakçısı Vasif Dilavərzadə, iş adamı Nadir Novruzi və tanınmış alpinist İsrafil Aşırlı gənclərə həyat hekayələrindən və təcrübələrindən danışıb, onlara hər zaman mətin olmağı tövsiyə ediblər.

**Milli Məclisin deputatı, ”Qarabağa dönüş” İctimai Birliyinin sədri Tural Gəncəliyev də SİA-ya fikirlərini bildirdi:** ”Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra Azərbaycan dövlətini gücləndirən və gələcəyə aparan gənclər siyasətinin əsasını qoyması və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın müasir gəncliyinin yetişməsinə gətirib çıxardı. Bunun sayəsində



güclü orduya sahibik. Yetişən yeni gənclik torpaqlarımızı əzmlə işğaldan azad etdi. Gənclərə tövsiyəmiz budur ki, onlar daim vətənpərvər ruhda olsunlar və öz tarixlərinə, mədəniyyətlərinə, köklərinə bağlı qalsınlar”.

***Qönçə Quliyeva***

## FORUMDAN REPORTAJ



# Gəncə - döyüşən və dirçələn şəhər

## ...18-ci səfərin təəssüratları

ANALİZ

***Gəncə Azərbaycan tarixinin şərəf bölümündə özünəməxsus yeri ilə seçilən şəhərlərdəndir. Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı da bu şəhər olub. Birinci Qarabağ müharibəsində ordumuzun əsas toplanış yeri, yaralı əsgərlərimizin ilk şəfa tapdığı şəhər kimi yaddaşlarda qalıb. Ötən əsrin 90-cı illərində baş verən hadisələr zamanı Ulu Öndərimiz Heydər Əliyevin səfəri nəticəsində qardaş qırğınına son qoyulan şəhər də Gəncədir.***

Ümummilli Liderimiz xalqın tələbi ilə hakimiyyətə ikinci dəfə gəlişindən sonra səfər etdiyi şəhərlərin siyahısında da Gəncə ilk yerlərdədir. Bir sözlə, Gəncə xalqımızın və dövlətimizin daim diqqət və qayğısı ilə əhatə olunan qədim və müasir şəhərdir.

2003-cü ildən indiyə qədər Azərbaycan Prezidenti İlham Əliyev demək olar ki, hər il Gəncəyə rəsmi səfər edib - 18 dəfə. Azərbaycanın ikinci şəhəri kimi Gəncəyə diqqət həmişə yüksək səviyyədə olub. 18 il ərzində Gəncə şəhərində bir sıra infrastruktur layihələri icra edilib və bu gün də davam etdirilir. Şəhərdə yeni səhiyyə və təhsil ocaqları, yaşayış və inzibati binalar inşa edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin "Gəncə şəhərində yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamı şəhərdə abadlıq-quruculuq işlərini davam etdirmək, o cümlədən avtomobil yollarının əsaslı təmiri və şəhərin küçələrinin işıqlandırılması işlərini həyata keçirmək üçün atılan addımlardan biri olsa da bu sərəncamdan sonra nəzərdə tutulan xeyli iş görüldü.

Ölkəmizdə birinci "Yaşıl şəhər" layihəsi Prezidentin göstərişi ilə məhz Gəncə şəhərində həyata keçirilməyə başlanılıb. Bu məqsədlə dövlətimizin Avropa Yenidənqurma və İnkişaf Bankından təqribən 70 milyon avro dəyərində kredit götürməsi, əlbəttə, Gəncənin inkişafı, abadlığı və tarixiliyini saxlamaqla bəzi sahələrdə yenidənqurmanı təmin etmək üçündür. Prezident İlham Əliyev Gəncə şəhərində modul tipli xəstəxananın açılışından sonra bir qrup tibb işçisi ilə görüşündə bu barədə danışarkən deyib ki, Gəncədə icra ediləcək "Yaşıl şəhər" layihəsi ictimai nəqliyyatı əhatə edəcək. Ondan sonra küçələrin işıqlandırılması, - bilirəm, bu məsələ ilə bağlı problem var, - bir də bərk məişət tullantılarının utilizasiyası. İlkin mərhələdə insanları narahat edən bu üç məsələ öz həllini tapacaqdır. Əlbəttə ki, biz bundan sonra da dövlət büdcəsi hesabına bütün lazımi addımları atacağıq.

### Gəncənin nəqliyyat infrastrukturu tam müasirləşdirilib

Ölkəmizin nəqliyyat infrastrukturunun yenilənməsi həm də tranzit potensialını artırmağa imkan verir. Bu məqsədlə Azərbaycanın digər bölgələrinə istiqamətlənmiş nəqliyyat xətləri ilə yanaşı Bakı-Gəncə-Qazax-Gürcüstan dövlət sərhədi xətti də mühüm önəm daşıyır. Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, səmərəliliyin artırılmasına müsbət təsir göstərir. Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də yüklərin ölkəmizin ərazisindən keçilməsinə etibarlı təminat verir. Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutunun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit potensialı böyükdür. Şərq-Qərb nəqliyyat dəhlizi üzərində olan Azərbaycanın Gəncə istiqamətində olan nəqliyyat xətti üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb ki, bunun da əsas səbəbi nəqliyyat infrastrukturunun tam olaraq yenilənməsidir. O cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma yaşanmaqdadır. Azərbaycan ərazisindən təkcə Çindən və Cənub-Şərqi Asiya ölkələrindən gələn yüklər deyil, həm də Rusiyadan Türkiyə və Avropa istiqamətinə yüklərin daşınmasında da intensivləşmə müşahidə olunur.

Bundan başqa, Gəncə şəhərində avtobus parkının yenilənməsi də dövlətimizin daim diqqətindədir. Prezident tərəfindən imzalanmış sərəncamından sonra şəhərin nəqliyyat strukturunda yenilənmə nəzərə çarpır. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. Bu yol iki zolaqdan dörd zolağa genişləndirilib. Eyni zamanda, Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılıb.

Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksək sürətli sərnişin qatarları hərəkət edir. İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, rahatdır. Əlbəttə, görülən bütün bu işlərin əsasında insan amili dayanır. Vətəndaş razılığının dövlətimizin əsas prinsiplərindən biri olduğunu nəzərə alsaq, bu məsələ çox önəmlidir. Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Qeyd edək ki, əsas təmir zonasında eyni vaxtda 6 lokomotivə xidmət etməyə imkan verən ikimərtəbəli platforma mövcuddur. Yeni depo sifariş edilmiş bütün dəyişən cərəyanlı lokomotivlərə fasiləsiz olaraq texniki xidmət göstərmək qabiliyyətindədir. Gəncə lokomotiv deposu ABŞ, Almaniya, İngiltərə, Hollandiya, İtaliya, Türkiyə, Koreya Respublikası, Çin, Rusiya və bir sıra digər ölkələrin istehsalı olan müasir avadanlıq və cihazlarla təchiz olunub. Həmçinin depo ərazisində 350 ədəd günəş paneli quraşdırılıb ki, bu da enerjiyə olan tələbatın bir hissəsini qarşılamaq imkanı yaradır. Əlbəttə, Gəncədən Şərq-Qərb nəqliyyat dəhlizinin keçdiyini nəzərə alsaq Gəncə lokomotiv deposuna nə qədər ehtiyac olduğunu təxmin edə bilərik.

### Gəncə İkinci Qarabağ müharibəsindən sonra

İkinci Qarabağ Müharibəsi başa çatandan sonra Gəncə bu dəfə də işğaldan azad edilmiş Kəlbəcər rayonunun inkişafını öz üzərində hiss edir. Çünki Kəlbəcərə gedəcəyimiz yol Gəncədən və Göygöldən keçir. Halbuki sovet dövründə də bu istiqamətdə yol heç vaxt olmayıb. Yay aylarında buradan yalnız yük maşınları hərəkət edə bilib. Müharibədən sonra qısa müddət ərzində həmin cığır genişləndirildi, Kəlbəcərə gediş-gəliş təmin edildi. Prezidentin də qeyd etdiyi kimi, indi Murov dağının altından böyük - uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə



Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

611,3 min nəfərin yaşadığı Gəncə-Daşkəsən iqtisadi rayonunun əsas sahələri kənd təsərrüfatı, sənaye, turizm və xalq sənətkarlığıdır. Təbii ehtiyatları dəmir filizi, alunit, əhəngdaşı, mərmər, gips, seolit, sement xammalı, hidroenerji və təbii-rekreasiya ehtiyatlarından ibarətdir. İqtisadi rayonda yaşayan insanların normal və rahat fəaliyyətini təmin etmək üçün hələ 2019-cu ildə mühüm sərəncam imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış rəsmi sənəddə 6 yaşayış məntəqəsini birləşdirən Gəncə-Daşkəsən-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi nəzərdə tutulub və bu məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin hesabına köçürülüb. Artıq iş tam olaraq icra edilib və istifadəyə verilib.

Hazırda Daşkəsən rayonunda dağ-mədən sənayesinin uğurla inkişafı böyük dərəcədə Gəncədəki infrastrukturla bağlıdır. Çünki orada həm qızıl yataqları, həm də dəmir filizi yataqları var. Bu işlərin sürətləndirilməsi üçün dövlətimiz tərəfindən əlavə göstərişlər verilib. Yataqlarından səmərəli istifadə etmək üçün zəncirvari sənaye klasteri yaradılmalıb. Əlbəttə, burada Gəncənin də xüsusi rolu var. Bir sözlə, Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur, bu gün də belədir.

### Gəncəyə cinayətkar Ermənistanın 13 hücumu

İkinci Qarabağ müharibəsi zamanı Gəncə həm də Ermənistan silahlı qüvvələrinin acizlikdən doğan vəhşiliyinə şahidlik etdi. Baxmayaraq ki, Gəncə müharibə zonasından onlarla kilometr uzaqda idi, Ermənistan müharibədəki uğursuzluğunun əvəzini körpə uşaqlardan çıxmaqla dönüş etmək istəsə də bu vəhşiliyi ona baha başa gəldi. Müharibələr tarixində dinc sakinlərə qarşı ballistik raketdən istifadə çox az-az rast gəlinən hadisələrdəndir. "Toçka-U", həm "SCUD" raketlərinin dinc sakinlərə qarşı tətbiq edilməsi nədən xəbər verir? Gəncə düz 13 dəfə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. 13 raketdən 8-i partlayıb və 6-sı uşaq olmaqla 26 dinc sakin həlak olub. Bu Ermənistan ordusundakı hərc-mərclikdən xəbər verir. Təəssüf ki, dünya ictimaiyyətinin hadisəyə reaksiyası çox gecikdi. Texnologiyanın yüksək səviyyədə inkişaf etdiyi XXI əsrdə atılan 13 ballistik raketin haradan istiqamətləndiyini şübhə altına qoymaq, tərəddüd etmək həmin beynəlxalq dairələrin nə qədər səmimi olduqlarını üzə çıxarır. Halbuki, müasir dövrdə bunu təyin etmək çox asandır. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır.

Azərbaycan bu müharibədə baş verən acı hadisələri heç vaxt unutmayacaq. Gələcək nəsillərin Ermənistanın cinayətləri barədə xəbərdar olmaları üçün Gəncədə Memorial Kompleksin yaradılması nəzərdə tutulub. Bu təqribən dörd hektar ərazini əhatə edəcək. Dağıdılmış binalar olduğu kimi qalacaq. Çünki baş verən vandalizm aktı yaddaşlardan silinməməlidir. Erməni faşizmi heç vaxt unudulmamalıdır. Sülh olsa da, erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Ermənistanı məğlub etməklə Azərbaycan həm də faşizmin Cənubi Qafqazda kökünü kəsdi. Erməni faşizminin bir daha baş qaldırmaması üçün müharibənin qanlı-qadalı günlərini özündə əks etdirən memorial kompleksləri inşa etməli, hadisənin baş verdiyi yerlərin real vəziyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq.

**V.VƏLİYEV**

# Rus ekspert: “Njde qəhrəman deyil, faşist canisidir, onun təbliği yolverilməzdir”



***Xəbər verdiymiz kimi, yanvarın 28-də çoxsaylı şikayətlərdən sonra Moskvada 3-cü Reyxlə əməkdaşlıq etmiş faşist əlaltısı Qaregin Njde haqqında filmin ictimai nümayişi dayandırılıb. Şou Rusiya Ermənilərİ İttifaqının təşəbbüsü ilə Ermənistan ordusunun yaradılmasının 30-cu ildönümünə həsr olunmuşdu. Lakin filmin nümayişindən əvvəl "Rusiya veteranları" Ümumrusiya İctimai Hərəkatı bu vəziyyətlə bağlı İstintaq Komitəsinə və Baş Prokurorluğa sorğu göndərib. Filmin nümayişindən əvvəl hüquq-mühafizə orqanlarının əməkdaşları zala gələrək belə nümayişin qanunsuz olması barədə prokurorluğun xəbərdarlığını oxuyublar.***

Məsələ ilə bağlı Rusiya ictimaiyyətinin nümayəndələri, siyasətçilər və mədəniyyət xadimləri öz etirazlarını bildiriblər. ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko da bu hadisəyə münasibətini bildirib. S?A xəbər verir ki, Moskva-Baku platformasına şərhində nasist əlaltılarını şöhrətləndirmək üçün bu cür cəhdləri qəti şəkildə qəbuledilməz adlandırıb:

- Moskvada Hitlerin əməkdaşı Qaregin Njdeni tərənnüm edən film nümayiş etdirmək cəhdi sırf genişmiqyaslı siyasi təxribatdır, nasizmi tərənnüm etmək cəhdidir. Rusiya xüsusi xidmət orqanlarının Qaregin Njde ilə bağlı rəsmi nöqteyi-nəzəri müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin Baş Redaksiya Komissiyası tərəfindən nəşr olunan 12 cildlik ”Böyük Vətən Müharibəsi 1941-1945-ci illər” ensiklopediyasının 6-cı cildində dərc edilmiş ”Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti” bölməsinin ”Gizli müharibə: Böyük Vətən Müharibəsi illərində kəşfiyyat və əks-kəşfiyyat” adlı məqalədə öz əksini tapıb.





Orada deyilir: ”Abverqrup-114 (”Dromedar”) əleyhinə aparılan gizli iş çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, Njde təxəllüsü ilə almanlarla birgə xidmət etmiş mühacir Ter-Arutyunyanı müəyyən edib həbs ediblər. Böyük Vətən Müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agenti cəlb etmiş, onların təxribat təlimlərində iştirak etmiş və təxribat fəaliyyətləri üçün Qırmızı Ordunun arxa cəbhəsinə göndərilmişdir. SMERŞ əməkdaşları tərəfindən təxribat və terror aktları törətmələrinin qarşısı alınaraq 17 diversant saxlanılıb, qalanları isə axtarışa verilib.

Rusiya Federasiyasının hüquq-mühafizə orqanları hazırda Njde haqqında film nümayiş etdirmək cəhdini dayandırıb. Nəticədə şounun təşkilatçısı- Rusiya Ermənilərİ İttifaqının, eləcə də Ermənistanın Moskvadakı səfirliyinin fəal bəd niyyətli reaksiyasını gördük. Ermənilər İttifaqı öz ”bəyanatında” kifayət qədər bayağı formada rus cəmiyyətinə əxlaq və əxlaq normalarını diktə etməyə, nəyin yaxşı, nəyin pis olduğu haqqında öz fikirlərini sırımağa çalışır, aşkarı inkar edir, ört-basdır etməyə çalışır. Njdenin nasistlərlə şərikliyi faktları əslində onları inkar edir, sanki heç vaxt ümumiyyətlə mövcud olmayıb.

Düşünürəm ki, Rusiya Ermənilərİ İttifaqı faşistlərlə əməkdaşlıq edən Njdenin təbliğatı əvəzinə Sovet İttifaqının marşalı, görkəmli Sovet hərbçisi İvan Baqramyan haqqında film nümayiş etdirsəydi, biz hamımızı alqışlayardıq. Baqramyan həqiqətən də qəhrəmandır. Və bütün belə bir şou son dərəcə müsbət qeyd olunacaqdı. Hitlerin əlaltıları bizi axmaq yerinə qoymağa çalışır və onlar Rusiya cəmiyyətinin buna dözməsini istəyirlər. Bu, olmayacaq! 27 milyon Sovet insanı bunun üçün 3-cü Reyx üzərində Qələbə naminə canını vermədi.

Ermənistanın Rusiyadakı səfirliyinin bəyanatı, məncə, sadəcə olaraq, ölkəmizin daxili işlərinə qarışmaqdır. Bu cənablara xatırlatmaq istərdim ki, onlar İrəvanda deyil, Rusiya Federasiyasının paytaxtı Moskvadadırlar. Ona görə də Rusiya qanunvericiliyini öyrənsinlər. Rusiya cəmiyyətinə ”qəhvəyi” dəyərləri tətbiq etməyə ehtiyac yoxdur. Bizim buna çox mənfi reaksiyamız var. Mən tam etiraf edirəm ki, Ermənistan səfirliyinin bəyanatı müstəqil deyildi. Görünən odur ki, Ermənistan Xarici İşlər Nazirliyindən irəliləyiş olub, ondan sonra diplomatik nümayəndəlik çıxış edib.

Bizə nasist əməkdaşının erməni milli qəhrəmanı kimi təqdim edilməsi iyrəncdir. İrəvanda, əgər arzulayırlarsa, qoy heç olmasa Njdenin onların qəhrəmanı olması barədə hər şeyi plakatlarla örtsünlər. Baxmayaraq ki, buranın postsovet məkanı olduğunu və nasizmin tərənnümünə qarşı mübarizənin burada xüsusilə aktual olduğunu nəzərə alsaq, o zaman da mübarizə aparmalı, qınamalıyıq. Amma Moskvanın mərkəzində belə aksiyaların təşkili cəhdi... üzr istəyirəm, mən hesab edirəm ki, buna Rusiya hüquq-mühafizə sistemindən kifayət qədər sərt və adekvat cavab verilməlidir.

Düşünürəm ki, Rusiya məhkəməsi Njdeni ekstremist kimi vəsf edən kitabları, müxtəlif materialları, filmləri tanıyıb, sonradan onların Rusiya Federasiyasının ərazisində- nümayişi, satışı, nümayişi üçün qadağan olunanlar siyahısına salınmasını zəruri hesab etməlidir.

Nasizmi tərənnüm etmək üçün bu növbəti cəhd dünyanın Holokost qurbanlarını xatırlaması ərəfəsində xüsusilə iyrənc görünürdü. Rusiya hakimiyyəti bir daha nasizmin tərənnüm edilməsinin yolverilməz olduğunu bəyan etdi. Rusiyada hər kəs Rusiya qanunlarına riayət etməlidir.

Mənim hər iki babam Böyük Vətən Müharibəsi cəbhələrində döyüşüb və həlak olub. İndi də bəzi təşkilatlar nasizmin şəriklərini tərifləməyə çalışırlarsa, buna reaksiya məqsədəuyğun ola bilər- dayandırmaq və məsuliyyətə cəlb etmək! Bəzi mifləri, ”qəhrəmanlarımızı” üzərimizə sırımağa ehtiyac yoxdur: faşizm faşizmdir.

Ölkəmizdə Rusiya qanunu hökm sürür. Milliyyətindən asılı olmayaraq, bütün nasist cinayətkarları eyni dərəcədə ”qəhvəyi”dir. Nasizmin tərənnümü üçün heç bir mənəvi və ya başqa əsaslar yoxdur. Nasizm, onun tərəfdarları olan, nasist əməkdaşlıq edənlərin milli mənsubiyyətindən asılı olmayaraq, eyni dərəcədə iyrəncdir.

Ölkəmizdə hitlerçi əməkdaşlar (general Vlasov var idi, vlasovçular var idi) Böyük Vətən Müharibəsi illərində hərbi tribunalın hökmü ilə asılmışdılar. Müasir Rusiyada Vlasovun şöhrətlənməsi mümkün deyil- bizim üçün bu, piç və satqındır. Hitlerin işbirlikçilərinə, xüsusən də Qaregin Njdeyə bəraət qazandıranlar- biz görürük ki, bunu bir neçə rus soyadlı adam edir - müasir vlasovçulardır: Rusiya qanunvericiliyi onlara tətbiq edilməli və nasizmin reabilitasiyasına görə məsuliyyətə cəlb edilməlidir.

Ona görə də hansısa formada Njdeyə Rusiya imperiyası uğrunda vuruşduğunu əsaslandırmağa çalışanda, bağışlayın, bəs onda necə? Və sonra terror hücumlarına və qətllərə görə Qırmızı Ordunun arxasına atılan diversantları öyrətdi, bununla da Sovet İttifaqına qarşı vuruşdu, bu nasist cinayətkarıdır. Onun şəxsiyyətinə, fəaliyyətinə verilən qiymət isə münasib olmalıdır.

Yeri gəlmişkən, Zatikyanın terror qruplaşmasından olan Njdenin ardıcılları 1977-ci ildə Moskvada silsilə terror aktları, o cümlədən metroda çoxlu sayda insanın ölümünə səbəb olan partlayış törədiblər. Onlar erməni millətçiləri idi.

On milyonlarla Sovet xalqının faciələrinə və iztirablarına səbəb olan SSRİ-nin dağılması prosesini məhz erməni millətçiləri başlatdılar. Ermənistanda da radikal millətçilik separatizm meyillərinə və qonşu dövlətlərə qarşı ərazi iddialarına səbəb olub.

2020-ci ilin payızında İrəvanın müharibədə məğlubiyyətindən sonra qisasçı qüvvələrin yenidən hakimiyyəti ələ ala bilməməsi isə səsvermə hüququna malik Ermənistan vətəndaşlarının əksəriyyətinin dövlətin normal inkişafına səs verdiyinin göstəricisidir. Qonşu dövlətlərlə mehriban qonşuluq münasibətlərinin qurulması. Ümid edək ki, erməni cəmiyyəti realizm yoluna qədəm qoyur və onilliklər boyu onu qidalandıran və son nəticədə Ermənistanı tarixi dalana dirədən o utopik, aldadıcı ideyalardan əl çəkməlidir.

***Tərcümə - Elçin Bayramlı***

***Tahir Budaqov, həmçinin qarşıda dayanan vəzifələrdən danışıb və bildirib ki, yubiley ili çərçivəsində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulur. Keçirilən tədbirdə "Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi" məsələsi müzakirəsinə çıxarılıb. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra partiyanın həyatında yeni mərhələ başlayıb, yeni qəbul olunmuş Nizamnaməyə əsasən partiyanın yeni strukturu müəyyən edilib. Vurğulanıb ki, Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz.***

# 30 il Yeniləşən, inkişaf edən, təkamülləşən YAP yeni proqramla möhtəşəm zirvələrə doğru

TƏHLİL

Mərkəzi Aparatın rəhbəri qeyd edib ki, artıq ötən ilin sentyabr ayından partiyanın Bakı şəhəri üzrə təşkilatlarının sədrləri öz vəzifələrinin icrasına başlayıblar. Ötən dövr ərzində respublikanın digər şəhər və rayonları üzrə yerli təşkilatların sədrliyinə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı geniş təhlillər, müzakirələr aparılıb və yekun olaraq təklif olunan namizədlərin siyahısı hazırlanaraq əvvəlcədən İdarə Heyətinin üzvlərinə təqdim olunub. Müzakirələrdən sonra səsvermə keçirilib, YAP-ın 64 şəhər və rayon təşkilatına yeni sədrlər təyin olunub.

## TARİXİ ZƏRURƏTDƏN YARANAN YAP XALQIN PARTİYASIDIR

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."

## 1993-CÜ İLDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLMƏSİ XALQIN YAP-A OLAN DƏSTƏYİNİN BARİZ İFADƏSİ İDİ




Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi. Həmin dövrü xatırladan Prezident İlham Əliyev bildirib ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib: "1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".

Bəli, bu gün 30 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 800 minə yaxın insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

## YAP-IN VII QURULTAYI - YENİ HƏDƏFLƏRƏ, VƏZİFƏLƏRƏ DOĞRU

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.

Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirləri irəli sürmüşdür. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var". Prezident İlham Əliyev qurultaydakı çıxışı zamanı YAP-ın müasir dövrün çağırışlarını özündə əks etdirən yeni proqramının hazırlanmasının vacibliyini bildirmişdir.Qeyd edək ki, Azərbaycan dövlətinin bütün sahələrində əldə olunan uğurlar YAP-ın yeni proqramının hazırlanmasını şərtləndirən mühüm faktorlardır. Prezident İlham Əliyevin çıxışlarından irəli gələn vəzifələri rəhbər tutaraq və ölkəmizin davamlı inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və 44 günlük Vətən müharibəsində şanlı qələbənin yaratdığı reallıqları nəzərə alaraq, YAP-ın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

## PREZİDENT İLHAM ƏLİYEVİN APARDIĞI SİYASƏTİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ EYNİ ZAMANDA ONUN SƏDRİ OLDUĞU PARTİYANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ DEMƏKDİR

Bəli, bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir.

Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.

YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı.

### İDARƏÇİLİK SİSTEMİNDƏ TƏKMİLLƏŞMƏ DAVAMLI İNKİŞAFI ŞƏRTLƏNDİRİR

Bir əsas məqamı da qeyd edək ki, 2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan əlavə və dəyişikliklər arasında prezidentlik müddətinin 7 ilədək uzadılması, vitse-prezidentlik institutunun yaradılması kimi məsələlər əsas yer tutur. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması uğurlarımızın davamlılığını şərtləndirən əsas amillərdəndir. Mehriban xanım Əliyeva təqdimat mərasimində bildirmişdir: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar".

Birinci vitse-prezident bu əminliyi də ifadə etmişdir ki, gələcək fəaliyyətini məhz bu prinsiplər əsasında qurmağa çalışacaqdır: "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında sosial məsələlərin həlli dayanır. 2017-ci ildən ötən dövr ərzində Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi gördüyü işlərin miqyası olduqca genişdir və onlar ümumilikdə Azərbaycanın dövlətçiliyinin daha da möhkəmləndirilməsinə, əhalinin sosial rifahının yüksəlməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, Azərbaycan mədəniyyətinin, tarixinin, milli-mənəvi dəyərlərinin təbliğinə yönəlib. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, bu il ölkəmizin UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsində Mehriban xanım Əliyevanın xidmətləri böyükdür.

### QƏLƏBƏLƏR, QALİBLƏR PARTİYASI - YENİ AZƏRBAYCAN PARTİYASI

Bəli, Yeni Azərbaycan Partiyası 30 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidentin olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox tarixi hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu, son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "YAP Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi",-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunun söyləyib: "Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır".

### "BİZ BU MÜTLƏQ QƏLƏBƏNİ QAZANDIQ, DÜŞMƏNİ DARMADAĞIN ETDİK, DÜŞMƏN ORDUSUNU MƏHV ETDİK VƏ İSTƏDİYİMİZƏ NAİL OLDUQ"

Prezident İlham Əliyev onu da bildirdi ki, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq: "Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Prezident, YAP-ın Sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxışı zamanı əldə edilən uğurları, aparılan hərtərəfli islahatlardan danışaraq, gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident İlham Əliyev son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi: "Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil".

### YENİ AZƏRBAYCAN PARTİYASININ TƏMSİLÇİLƏRİNİN 40 FAİZİNİ GƏNCLƏR TƏŞKİL EDİR

Cari ilin ilk ayından dövlətimizin başçısı İlham Əliyevin idarəetmə sistemində təkmilləşməyə xidmət edən fərman və sərəncamlarına diqqət yetirmək kifayətdir. Ölkə Prezidentinin həyata keçirdiyi gəncləşmə siyasəti təqdir edilir. Gənclər ölkəsi olan ölkəmizdə onların potensial imkanlarından səmərəli istifadə olunması, idarəçilikdə irəli çəkilmələri bütün dövrlərdə öz aktuallığını qoruyub. Bu gün sıralarında 800 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının təmsilçilərinin 40 faizini gənclər təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçilik faizlərinin artırılması istiqamətində atılan addımlar öz bəhrəsini verir. Belə ki, Yeni Azərbaycan Partiyası son parlament və bələdiyyə seçkilərində zəngin seçki təcrübəsinə əsaslanaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçiliyini artırıb. Bir sözlə, YAP Gənclər Birliyi ölkəmizdə gənclər sahəsində ən böyük təşkilat olaraq onların cəmiyyətdə fəal və təşəbbüskar rolunu dəstəkləyir. Çünki gənclərin potensialından ölkəmizin inkişafı naminə bəhrələnmək üçün təkcə intellektual imkanlar, bilik və bacarıqlar kifayət deyil. Eyni zamanda, həmin potensialın sərgilənə bilməsi üçün gənclərə münbit şəraitin yaradılması, onlara meydan verilməsi çox vacib məsələdir. Bu gün Azərbaycanda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti məhz gənclərimizin bu yanaşma əsasında inkişafını özündə ehtiva edir.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

**RƏFİQƏ KAMALQIZI**

## "Gənclər siyasətinin əsas hədəfləri gənclərin inkişafına şərait yaratmaqdır"



"Azərbaycan dövlətinin gənclər siyasətinin əsas hədəfləri gənclərin inkişafına şərait yaratmaq, imkan və bacarıqlarına uyğun karyera qurmalarına dəstək verməkdir. Eyni zamanda, əlbəttə ki, gənclərin sosial problemlərinin həlli, hüquqlarının müdafiəsi də dövlətin daim diqqət mərkəzindədir. Hesab edirəm ki, bu sahədə ötən müddətdə çox böyük işlər görülüb". SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı Ramin Məmmədov deyib.

Deputat qeyd edib ki, bu gün gənclərin ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında fəal iştirakını təmin etmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir: "Azərbaycan əhalisinin təxminən dörddə biri gənclərdən ibarətdir. Bu, demoqrafik problemlərin aktual olduğu müasir dünyamızda kifayət qədər yaxşı göstərici hesab oluna bilər. Cənab Prezidentin təsdiq etdiyi müxtəlif dövlət proqramları, imzalanan fərman və sərəncamlar, xüsusilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, fiziki, əqli və mənəvi inkişafı üçün əlverişli şərtlər yaratmaq, onların yüksək təhsil almasını, intellektual inkişafını təmin etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Bu gün əldə olunmuş uğurların əsasında məhz gənclərə göstərilən diqqət və qayğı, yeni nəslin ölkənin həyatında fəal iştirakında dövlətin maraqlı olması dayanır".

R.Məmmədov qeyd edib ki, Azərbaycan Prezidenti gənclərə hər zaman böyük etimad göstərdiyini dəfələrlə öz çıxışlarında vurğulayıb. Məhz dövlət başçısının, eyni zamanda, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın gənc nəslə həssas münasibəti bu sahədə nəzərəçarpacaq uğurlar qazanmağa imkan yaradıb: "Gənclərin cəmiyyətin aparıcı təbəqəsi olduğu, ictimai-siyasi proseslərdə, mənsub olduğu ölkələrin həyatında mühüm rol oynadığı faktını bütün dünya qəbul edir. Bu, artıq dəfələrlə təcrübədən çıxmış və təsdiqini tapmış bir məsələdir. Lakin heç də bütün ölkələrdə bu vacib enerjini ümummilli mənafelərin reallaşdırılması prosesinə cəlb etməyə nail ola bilmirlər. Hesab edirəm ki, Azərbaycan bu mənada çox uğurlu bir model yarada bilib. Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında əksəriyyəti gənclərdən təşkil olunmuş Azərbaycan ordusunun qazandığı tarixi qələbə bunun ən bariz nümunələrindən biridir. Və ən çox vacib bir məqam da ondan ibarətdir ki, 44 günlük müharibədə Azərbaycan torpaqlarını işğaldan azad edən ordumuzun bölmələrinə, müxtəlif hərbi strukturlarına rəhbərlik edənlər də məhz işğalın ağrılı nəticələrini yaşamış, o dövrdə uşaq yaxud gənc olmuş insanlar idi. Bu, hesab edirəm ki, Azərbaycan dövlətinin nə qədər düzgün siyasət həyata keçirdiyini bir daha təsdiq edir. Cənab Prezidentin son 17 ildə yetişən gənclər bu torpaqları azad etdilər" fikri bu mənada çox böyük və dərin məna daşıyır".

Deputat qeyd edib ki, Azərbaycan gənclərinin bundan sonra da böyük nailiyyətlərə imza atacağına əmin olduğunu vurğulayıb. Qeyd edib ki, bunun üçün ölkədə bütün şərtlər mövcuddur. yap.org.az

# Zamanın çağırışına cavab verən Azərbaycan gəncləri

## *Dövlət başçısının Sərəncamı ilə xüsusi fərqlənən gənclərə Prezident mükafatları veriləcək*




***Müasir Azərbaycan gəncliyi yaşadığımız zamanın ən məsuliyyətli bir dövrünü yaşayır. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə inkişafda olduğu bir zamanda müasir zamanın çağırışlarına cavab vermək əlbəttə ki, gənclərdən böyük məsuliyyət tələb edir. Azərbaycan bayrağına bağlı olan gənclik respublikamızda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə fəal iştirak edir və hər bir sahədə izi, əməlləri görünür. Deməli, işıqlı sabahımızın gəncliyi fəal gənclikdir, yeniliyə meyil edən gənclikdir.***

Əlbəttə ki, müasir gəncliyin dövlətin diqqət və qayğısı ilə əhatə olunması onların bütün potensialarından düzgün istiqamətdə istifadəsinə imkanlar açır. Prezident İlham Əliyevin son 18 ildə Azərbaycanda gənclərlə işin inkişaf etdirilməsi ilə bağlı verdiyi göstəriş və sərəncamlar sözügedən təbəqənin öz üzərinə düşən məsuliyyəti daha dərindən dərk etməsinə əhəmiyyətli təsir göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncamı gənclərin fəallığının artırılmasında xüsusi əhəmiyyətə malikdir. Sərəncama əsasən, elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən on gəncə Prezident mükafatları veriləcək. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə verilir. Yeri gəlmişkən onu da bildirək ki, 1996-cı il 22 iyun tarixində Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmanla elmi və mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" və "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev gənclərinin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında onların intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

Təbii ki, müasir dövrümüzün tələbləri nəzərə alınaraq dövlətin gənclərə diqqət və qayğısı da artır. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, istedadlı gənclərin qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması və s. istiqamətində tədbirlər həyata keçirilir. Təbii ki, gənclər ölkədə baş verən proseslərdə həm təşəbbüskar, həm də iştirakçıdır.

Cəmiyyətin aparıcı qüvvəsi olan gənclik daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Bu gün tam əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində sağlam bir gənclik yetişib. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin daha bir ifadəsidir. Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi gənclərə olan qayğının bariz nümunəsidir.

Azərbaycan gəncliyi Dövlət Proqramlarının davamı olaraq ölkə başçısının 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası"nı təsdiq etdi. Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdan ibarətdir. Azərbaycanın qısa müddətdə iqtisadi, sosial sahədə əldə etdiyi uğurları müəyyənləşdirilmiş düzgün siyasət və strategiyanın uğurlu addımları kimi dəyərləndirən gənclər dövlətin onlara göstərdiyi diqqəti əməli fəaliyyətləri ilə doğrultmaqla, əsl vətəndaşlıq məsuliyyətlərini ölkənin ictimai-siyasi həyatında tutduqları sağlam mövqe ilə təsdiqləyirlər. Bu gün təqdirəlayiq hal isə odur ki, gənclər də dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını, onlara olan etimadı yüksək qiymətləndirərək var qüvvələri ilə çalışır, ölkənin inkişafı naminə öz töhfələrini verirlər.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

## "Azərbaycan dövləti gənclər siyasəti ilə bağlı konkret ideologiyaya sahibdir"



"Azərbaycan Respublikasında milli ideologiya və milli vətənpərvərlik hissi ilə böyüyən güclü və qüvvətli bir gənclər ordusu yetişir. Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi 44 günlük Vətən müharibəsi, zəfər qələbəmiz çərçivəsində aparılan bu tarixi savaşda bilavasitə gənclərin üzərinə böyük məsuliyyət düşüb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ramil Həsən bildirib.

Onun sözlərinə görə, hansı ki, bu gənclər ölkə başçımızın fəlaiyyəti dövründə yetişib, formalaşmış Azərbaycan övladlarıdır: "Şübhəsiz ki, 2 fevral - Gənclər günündə bununla bağlı danışmaqdan da fəxr hissi duyuruq. Hazırda bir qrup gənc isə cənab Prezident tərəfindən müxtəlif formalarda təltif edilir. Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət tərəfindən əsası 1997-ci ildə qoyulmuş Gənclər günü böyük əhəmiyyət kəsb edir və biz bu günə qədər 2 fevralı xüsusi formada qeyd edirik. Bütün bu addımlar bacarıqlı, qabiliyyətli, intellektual potensiala sahib olan gənclərin inkişafı üçün çox mühümdür. Əlbəttə ki, bu addımlar güclü bir stimuldur. Bu addımlar gələcək nəsillərimizin daha da güclənib qüvvətlənməsi ruh yüksəkliyi ilə Vətənə və millətə sahib ideologiya və şüur hissi ilə güclənməsində mühüm rol oynayır. Gənclər günündə məhz bu istiqamətdə konkret addımların atılması da Azərbaycan dövlətinin gənclər siyasəti ilə bağlı konret ideologiyaya sahib olduğunun təcəssümüdür".

***Səbinə Hüseynli***

## Gənclər Azərbaycanın gələcəyi, ümidi, inam yeridir

***"Gənclər günü münasibətilə bütün Azərbaycan gənclərini, xüsusilə Yeni Azərbaycan Partiyasının gənclərini ürəkdən təbrik edirəm". Bu fikirləri SİA-ya açıqlamasında YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirib.***



Onun sözlərinə görə, Gənclər günü ilə bağlı Fərman Ulu öndər Heydər Əliyev tərəfindən 1997-ci ilin 2 fevral tarixində imzalanmışdır. Bu Fərmana əsasən hər il 2 fevral Gənclər günü kimi qeyd edilir və bunun da həm xalqımız üçün, həm də gənclərimiz üçün çox böyük əhəmiyyəti var. Çünki siz gənclər Azərbaycanın gələcəyi, ümidi, inam yerisiniz. Gələcəkdə Azərbaycan müstəqilliyinin qorunması, inkişaf etdirilməsi, Azərbaycanın dünyada tanınması üçün siz gənclərə çox böyük etimadımız var. Biz hər zaman partiya olaraq gənclərin yanındayıq və gənclərə daim dəstək olmağa hazırıq ki, siz gənclər bütün bacarığınızı, gücünüzü Azərbaycan üçün sərf etməkdən səkinməyəsiniz. Azərbaycanın müstəqilliyinin əbədi olması üçün siz gənclərdən çox şey asılıdır. Bu yolda hər bir gəncə uğurlar arzulayıram".

***Abutel İlhamqızı***

ARAŞDIRMA




# Uğur qazanmağın yolları

***Məqsəd əldə etmək istədiyiniz nəticədir. Məqsədlər aydın, ölçülə bilən və onlar tamamilə konkret və əbədi olmalıdır. Məqsəd bizim həyatda olan missiyamız və həyat zirvəmizdir, yaşam səbəbimizdir. Hədəf isə məqsədə çatmağın yolu və ya məqsədin şəffaf, dəqiq və təyin edilmiş zaman planı ilə reallaşmasıdır.***





Uğur məqsədə çatmaqdır. Müvəffəqiyyət üçün motivasiya işi daim "ən yaxşı" etmək istəyi və görülən hər bir işdə müəyyən kamillik səviyyəsinə çatmaq səyidir. Uğur çətinliklərə qalib gəlmək, öz gücünü sınamaq, çətin bir işi ən qısa zamanda və ən yaxşı şəkildə etməyə çalışmaq istəyidir.

Uğur əldə etmək üçün lazım olan əzmkarlıq nümayiş etdirərək hədəfə çatmaq və hədəfi aşmaqdır. Hədəfli və uğura yönəlmiş insanlar hədəflərdən yüksəkdə çıxış etməyə çalışırlar və hədəfə çatmaq üçün iddialı və qətiyyətlidirlər. Ona görə də məqsədlər missiya və dəyərlərdən yaranır. Hədəflərin başqa bir xüsusiyyəti onların strategiya və yanaşmalara çevriləcək keyfiyyətə malik olmasıdır. Dəyərlərdə və missiyada ifadə olunan istəyi, məqsəd vizyonun həyata keçirilməsi üçün strategiya və yanaşmalarla əlaqələndirir. Məqsədlərin həyata keçirilməsi tərəflərin öhdəliyi götürməsindən asılıdır. Uğur əldə etmək üçün ilk öncə məqsədləri müəyyən etmək lazımdır.

## Məqsədə çatmaq üçün nə etmək lazımdır?

Bu, özümüzü daha yaxşı bir nöqtəyə çatdıra biləcəyimiz bir növ balans oyunudur. Həqiqi məqsədlərin qoyulması ilə ardıcıl və səbirli olmaq lazımdır.

**1) Motivasiyanızı müəyyənləşdirin**

Hər səhər yuxudan duranda özünüzə suallar verin: Niyyətləriniz nədir və onlara necə nail olacaqsınız? Sizi motivasiya edən nədir? Motivasiyanı yüksək saxlamaq, hədəflərinizə çatmaq üçün etibarlı bir xatırlatmadır. Yuxudan oyandığınız zaman sadə 15 dəqiqəlik meditasiya gün ərzində fikrinizi pozitiv saxlamağa kömək edir. Onları sizin üçün xüsusi mənaları olan görünən yerlərdə yazaraq ehtiyac duyduğunuz zaman onlardan ilham ala bilərsiniz.

**2) Dəyişiklik üçün əlverişli mühit yaradın**

İnkişafınızı zəiflətməkdənsə, ətrafınızı həvəsləndirici etməklə özünüzü uğura hazırlayın. Məqsədlərinizə çatmağınıza kömək edəcək vərdişlər yaradın. Bunlardan ən əsası özünə qulluq etməkdir. Əgər sağlam deyilsinizsə və dincəlmirsinizsə, aydın düşüncəli deyilsinizsə çətin ki, istədiyinizə nail olasınız. Ağlınızın, bədəninizin və ruhunuzun qayğısına qalmaq sizə məqsədinizə nail olmağa və uğur qazanmağa kömək olacaq.

**3) Məsuliyyətli olun**

Özünüzü necə məsuliyyətli edəcəksiniz? Məsuliyyət, öhdəliklərə əməl etmək və qərar qəbul edərkən və ya bir şey edərkən diqqətli olmaqdır. Gündəlik məqsədlərinizə çatmadığınız zaman nəyin təhlükəli olduğuna qərar verməək vacibdir. Sizi qorxudacaq, sizi rahatlıq zonanızdan kənarlaşdıracaq, motivator rolunu oynayacaq və inanılmaz dərəcədə faydalı hiss edəcək riskli bir şeyə qərar verin.

**4) Uğursuzluqlardan dərs alın**

Uğursuzluq çox ağır bir yükdür və prosesdə hətta utancvericidir. Amma zamanla başa düşəcəksən ki, hər şey sənin xeyrin üçündür. İnsan çətinliklərdə gücünü tapır. Gücünüzü tapın və sizi hədəfinizə doğru aparmasına icazə verin. Hər bir həyatda uğursuzluq qaçılmazdır. Əsas odur ki, uğursuzluqların öhdəsindən gələndən sonra kim olmaq istəyirsən.

**5) Öz uğurunuza diqqət yetirin**

İlham olaraq gördüyünüz insanları ətrafınızda saxlayın. Sizə paxıl gözlərlə baxan və yalnız sizi müqayisə edən insanlar sizi qaranlıq istiqamətə aparacaq. Özünüzü insanlarla müqayisə etmək mənimsəmək asan, amma buraxmaq çətin olan bir vərdişdir.

**6) Realist və ardıcıl olun**

İnsan dəyişməyə qərar verməlidir. Qərarınıza sadiq qalaraq yalnız zehninizdəki dəyişikliyi vizuallaşdırmaqla deyil, həm də onu qələmə almaq lazımdır. Bundan əlavə, çətinliklərlə qarşılaşdığınız zaman təslim olmağın davam etməkdən daha asan olacağını qəbul etməlisiniz. Bunu nəzərə alaraq, bu yolda özünüzü inkişaf etdirməyin nə üçün vacib olduğunu yadınızda saxlayın ki, işlər çətinləşəndə niyə bu yola çıxdığınızı özünüzə xatırladasınız.

**7) Özünüzün vəkili olun**

Burada əqli tərbiyə vacibdir. Müsbət öz-özünə danışmaq əsasdır. İnsanın özü-özü ilə danışması beyninin məşqidir və "beyni öyrətmək" strategiyasıdır. Neqativlə mübarizə aparmaq üçün həyatınızda fərdiliyə diqqət yetirin. Yadda saxlayın ki, özündən başqa heç kimlə rəqabət aparmırsınız.

**8) Strukturlaşdırılmış vaxt qrafiki yaradın**

Hər bir məqsəd üçün xüsusi addımlar təyin edin, hər bir addım üçün vaxt məhdudiyyəti təyin edin, yerinə yetirmək üçün hər bir vaxt məhdudiyyəti üçün özünüzə gündəlik tapşırıqlar verin. Böyük məqsədləri kiçik parçalara ayırmaq və sonra hər bir parçanı gündəlik olaraq tamamlamaq nəyisə yerinə yetirmək, daha böyük bir şeyə doğru irəliləmək və ölçülə bilən inkişaf hissi verir.

**9) Öncəliklə qarşınıza kiçik məqsədlər qoyun**

Çox vaxt özünü təkmilləşdirməyə ən böyük maneə özümüz olur. Çox vaxt düşünməyə və növbəti addımdan qorxmağa sərf edirik. Yalnız nail olmaq istədiyiniz bir fikir və ya plan əldə etməyin. Fikirlərinizi yazmaq və ətraflı plan hazırlamaq çox vacibdir.

**10) Uğuru gözləyin**

Məqsədlər qoymağa gəldikdə daha az şey daha yaxşıdır. Əgər həyatınızı birdən dəyişməyə çalışmaqdansa, həyatınızın bir və ya iki hissəsində dəyişiklik etməyə çalışsanız, uğur şansınız daha yüksək olacaq. Uğurun necə göründüyünə qərar verin. Özünüzü təkmilləşdirmə yolunda dəstək tapdığınızdan əmin olun.

**11) Səbirli olun**

Özünüzə çox sərt davranmayın. Hamımız qarşımıza məqsədlər qoyuruq. Amma həyat müdaxilə edir. Həyatımızın hər anını planlaşdırmaq, hər şeyi taleyin ixtiyarına buraxan insanlardan daha konkret nəticələr əldə edəcəyimizə zəmanət vermir. Siz qarşınıza məqsədlər qoyursunuz və bu məqsədə çatmaq üçün hər gün əlinizdən gələni edirsiniz. Bəziləri üçün illərlə səy tələb olunur, bəziləri isə daha tez uğur qazanırlar. Çevik olmaq və irəliləməyə davam etmək sizin işinizdir. Məqsədlərinizə çatmaqda səbirli olun, gözlənilməzləri gözləyin, çox çalışmağa davam edin. Ən qısa zamanda olmaq istədiyiniz insana çevriləcəksiniz.

Mövzu ilə əlaqədar psixoloq Aytən Ələkbərova SİA-ya fikirlərini bildirib: "Bu gün insanların mənəvi, iqtisadi, sosial, maddi tərəfdən uğursuzluqlarının səbəbi plansız addımlarından irəli gəlir. Çünki plansız addımların içində uğursuzluqlar dayanır. Plansız verilən qərarlardan problemlər yaranır. Bu problemlər özündə depressiyalar yaradır. Bu isə çox düşünməyə səbəb olur, bəzən belə insanlar zəif iradəli olduqda intihar halları baş verir. Planlı bir şəxsiyyət kimi formalaşmağın əsası ailədən başlayır. Valideynlər uşaqlarda inam hissi aşılamalı və səbrlə və tələbkarlıqla yanaşmalıdırlar. Bu şəkildə böyüyən uşaq artıq uşaqlıqdan öz məqsədlərini həyata keçirmək üçün plan qurur, bu planlı yaşamağın əsası dərketmədən aslıdır. Bu mənada insanın fərdi, psixoloji xarakteri mühüm rol oynayır. Məqsədlərin həll olunmasında ilk olaraq zəka mühüm faktordur. Psixoloji planda ilk zəhmətsevərlilik əsas kriteriyadır. Artıq zəhmətə qatlaşan insanın planı onun zəkasında qurulmuş vəziyyətdədir. İnsan beyni həmin məqsədli addımlara uyğun plan qurur. Uğur qazanan insanların əsasında məqsəd dayanır".

***Qönçə Quliyeva***

***Cəmiyyətin yeni düşüncəsi, yeni baxışına sahib olan gənclik gələcəyə olan inamdır. Azərbaycan gəncliyi öz fəaliyyəti, öz uğurları, öz imzası ilə gələcəyimizin təminatı əzmindədir və bu heç də təsadüfi deyil. Belə bir əzm sözsüz ki, gəncliyə göstərilən diqqət və qayğının sayəsində, Azərbaycan dövlətinin milli maraqlara, milli dəyərlərə, eləcə də beynəlxalq təcrübəyə əsaslanan gənclər siyasətinin nəticəsi olaraq təzahür edir, mövcuddur və əldə edilən nəticələr də, reallıqlar da bunu təsdiq edir.***

# Azərbaycan gəncləri vətənpərvər, milli ruhdadır




Reallıq ondan ibarətdir ki, Azərbaycan gəncliyi bütün sahələrdə öz iştirakı, fəallığı ilə seçilir və artıq gənclərimiz irimiqyaslı layihələrin icrasından tutmuş, idarəetməyə qədər bütün proseslərdə yaxından iştirak edir. Hətta ölkəmizin gəncləri ictimai proseslərdə yaxından iştirak edir və diqqətə çatdıraq ki, bizdə könüllülük hərəkatı da, onun fəaliyyəti də xüsusilə qeyd olunmalıdır. Bütün bunlar isə ondan xəbər verir ki, gənclərimizin, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhu, eləcə də vətəndaşlıq mövqeyi möhkəmlənib və gümü-gündən də möhkəmlənməkdədir.

Azərbaycan gəncliyi bir-birinin ardınca uğurlara imza atır və gənclərimizin səsinin, sədasının beynəlxalq aləmdə belə eşidilməsi təsadüfi deyil, bu uğurun bariz nümunəsidir. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, bu gün ölkə rəhbəri, cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin davamı olaraq dəyərləndirilir. Xatırladığımız kimi, Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı, hansıki, ümumilikdə dövlət orqanlarınının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək istiqamətində ən uğurlu, düşünülmüş addım kimi qiymətləndirilir və bu da öz növbəsində dövlətin gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirir. Onu da bilirik ki, Ulu Öndərin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra, ilk dəfə 1996-cı ildə olmaqla hər il ölkəmizdə Azərbaycan gənclərinin forumu keçirilməkdədir.

Birinci Forumdan sonra gənclərlə aparılan işin nəzərə çarpacaq dərəcədə canlandığı nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı Sərəncamla məhz həmin tədbirin keçirildiyi gün, yəni 2 fevral tarixi Azərbaycan Gənclər Günü elan edildi. Dövlətimizin gənclər siyasətinə böyük diqqət yetirdiyi, eləcə də önəm verdiyi 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan "Dövlət-Gənclər Siyasəti haqqında" Fərmanla da öz təsdiqini tapıb. Çünki, bu Fərman gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri, ümilikdə çox böyük və geniş bir spektri əhatə edir.

Əlbəttə ki, Ulu Öndərin irəli sürdüyü, formalaşdırdığı gənclər siyasəti uğurla davam etdirilir. Məhz bu siyasət sayəsində ölkəmizdə yüksək intellektual bacarıqlara, ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərmək əzminə sahib olan gənclər formalaşıb. Azərbaycan gənci bütün sahələrdə çalışır, istər siyasət, istər iqtisadiyyat, istər mədəniyyət, istər idman, istərsə də hərhansı sahədə özünü doğrulda bilir, uğurlara imza atır, üzərinə götürdüyü istənilən vəzifənin öhdəsindən layiqincə gəlir. Azərbaycan gənci ölkəmizin bayrağını idman yarışlarında, beynəlxalq miqyaslı tədbirlərdə, platformalarda göyə ucaldır, ölkəmizi layiqincə təmsil edir. Gənclərimiz üzərlərinə düşən öhdəliyi dərindən dərk edir, bunun öhdəsindən də gələ bilir və bunu dəfələrlə təsdiq etdiyi də göz önündədir.

Göründüyü kimi, Azərbaycan gəncləri vətənpərvər ruhdadır və imza atılan bütün uğurlar bu ruhun, məhz vətənpərvərlik ruhunun məntiqi nəticəsidir. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", deyən cənab Prezident İlham Əliyev özü də Azərbaycan gənclərinin vətənpərvərlik ruhunu hər zaman qiymətləndirib. Xüsusilə, 4 günlük Vətən müharibəsində gənclərimizin necə vətənpərvər olduğu, hansı milli ruha sahib olduğu özünü göstərdi. Bunu təkcə Azərbaycan cəmiyyəti deyil, bütün dünya da gördü. Gördü ki, Azərbaycan gənci bir qarış torpağını düşmənə güzəştə getməz və bunun üçün canından, qanından keçməyə də hər zaman hazırdır.

Sözsüz ki, 44 gün ərzində əldə etdiyimiz qələbə, Azərbaycanın Zəfəri xalqımızın həmrəyliyi, birliyi, rəşadətli Azərbaycan Ordusunun, əsgər və zabitlərimizin şücaəti, ələlxüsus, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi ilə reallaşdı və bu qələbədə bütün yaş qruplarından olan vətəndaşlarımızın payı var. Bir sözlə, hər kəs bu qələbəmiz üçün, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təminatı üçün, tarixi ədalətin bərpası üçün bütün səy və bacarıqlarını əsirgəmədi, amma onu da qeyd etmək lazımdır ki, döyüşlər zamanı canından, qanından keçən, bu yolda şəhid olmağı hər şeydən üstün tutan gənclərimiz çoxluq təşkil edirdi. Gənclərimizin, Azərbaycan gənclərinin milli maraqlarımız, dövlətçilik maraqları uğrunda ən ali hissləri özünü bir daha təsdiq etdi. Təsdiq etdi ki, Azərbaycan gəncləri milli ruhda, vətənpərvər ruhdadır və dövlətçiliyimizin, milli maraqlarımızın, haqq və hüquqlarımızın keşiyindədir. Bu isə həm də ondan xəbər verir ki, bundan sonra da milli maraqlarımızı, dövlətçiliyimizi, ərazi bütövlüyümüzü, ümumilikdə suverenliyimizi qoruyacaq gənclərimiz var. Bir sözlə, gənclərimizin milli ruhu, vətənpərvərlik ruhu onu deməyə əsas verir ki, gənclərimizin bu ruhda olması, əzm və iradəsi gələcəyimizin əmin əllərdə olduğunun təsdiqləyir.

Şəhidlik zirvəsi ən ali zirvədir və bu zirvəni qazanan gənclərimiz bizim qürurumuz, xaqımızın fəxridir və onların xatirəsi əbədi olaraq yaddaşımızda yaşayacaq, ehtiramla yad olunacaq. Gənc olmasına rağmən şəhidlik zirvəsinin fərqində olan, bu zirvənin ali olduğunu qəbul edən, bunun üçün canından, qanından keçən, şəhid olan Mübariz kimi oğulları, gəncləri olan ölkənin, Azərbaycanın gələcəyi barədə nikbin fikirdə olmaqda hər birimizin haqqı var. Öz vətəninin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, xalqımızın haqq işi uğrunda mübarizəsi üçün canından keçməyə hazır olan gənclik, milli ruhda, vətənpərvərlik ruhunda olan Azərbaycan gəncləri öz məsuliyyətini, üzərinə düşən öhdəliyi dərk etdiyi görünür və əminliyimiz artır ki, Azərbaycan gələcəyə doğru inamla addımlayır.

***İnam Hacıyev***

***"Heç kimə sirr deyil ki, 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra Ulu Öndərin hakimiyyətə gəlişinə qədər dövlət hakimiyyətinin strukturlarının qurulmasında ciddi problemlər mövcud idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildə Prezident seçildikdən sonra bütün taleyüklü məsələlərin həllinə düşünülmüş şəkildə start verdi. Gənclər siyasəti də Ulu Öndərin diqqətindən yayınmamışdı.***

# "Ölkəmizin davamlı inkişafı üçün gənclərin üzərinə böyük məsuliyyət düşür"



Gənclərin inkişafı üçün görülən bütün işlər ümumilikdə ölkənin hərtərəfli inkişafının təmin olunması üçün potensial kadr bazasının hazırlanması və vətənpərvər gənclərin, yetişdirilməsinə istiqamətlənmişdi. Ulu Öndər gəncləri əhatə edən işlərin görülməsi ilə yanaşı özünün müdrik tapşırıqlarını da ifadə etmişdi. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyə qeyd edən böyük azərbaycanlının bu sözləri Azərbaycan gənclərinin qarşısında duran vəzifələri müəyyən edirdi. Gənclər bu tapşırığın öhdəsindən gəldi və gəlməkdədir. Bugünkü gənclər siyasəti Ulu Öndərdən Azərbaycan dövlətinə və Azərbaycan xalqına miras qalan çoxsaylı işlərdən biridir. Ulu Öndər Heydər Əliyevin yaratdığı müasir Azərbaycanı uğurlu gələcəyə aparan Prezident İlham Əliyev də gənclərlə iş sahəsində işlərin görülməsini xüsusi diqqətdə saxlayır. Möhtərəm Prezident gənclərə müraciətində,qeyd etdi ki, "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu sözlər gənclərimiz üçün böyük motivasiya olmaqla onların davamlı fəaliyyətini stimullaşdırıb". S?A xəbər verir ki, bu fikirləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və İdman Komitəsinin sədr müavini Şahin İsmayılov deyib.

Deputat bildirib ki, bu gün təntənəli şəkildə qeyd etdiyimiz Gənclər Gününün də tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1995-ci ildə gənclər forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü və 1996-ci ilin 2 fevral tarixində 1-ci Gənclər Forumu baş tutdu. 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı müvafiq sərəncamla Azərbaycan Gənclərinin Forumunun keçirildiyi tarix - 2 fevral ölkəmizdə gənclər günü kimi qeyd olunmağa başlanıldı. Ondan sonra keçən dövrdə Azərbaycanda hər 3 ildən bir gənclər forumları keçirilir. Forumlarda gənclərimizi maraqlandıran məsələlər müzakirə olunur, qərarlar qəbul olunur. Prezident İlham Əliyevin hakimiyyəti dövründə də gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Gənclər üçün yeni imkanlar yaradılmış, onların hərtərəfli inkişafı üçün dövlət tərəfindən mühüm töhfə verilmişdir. Bu gün hakimiyyət qollarında gənclərlə işləyən ixtisaslaşmış orqanlar mövcuddur. Biz burada xüsusi olaraq Prezident Administrasiyasında Gənclər Siyasəti və İdman Məsələləri şöbəsini, Milli Məclisin Gənclər və İdman komitəsini, Gənclər və İdman Nazirliyini, Gənclər Fondunu göstərə bilərik. Eyni zamanda Azərbaycanda 300-ə yaxın Gənclər sahəsində işləyən Qeyri-Hökümət Təşkilatları fəaliyyət göstərir. Müxtəlif elmi-tədqiqat mərkəzlərində də kifayət qədər sayda gənclərimiz çalışırlar. Biz bu misalları artıra, gəclərimizin uğurları haqqında daha çox danışa bilərik. Təbii ki, bu uğurların əldə olumasında uğurlu dövlət gənclər siyasəti dayanır. Gənclər hər zaman dövlətin diqqətini, xüsusilə prezident İlham Əliyevin dəstəyini hiss edirlər.

Deputatın sözlərinə görə, Azərbaycan gəncləri 44 günlük Vətən Müharibəsi zamanı da olduqca böyük qəhrəmanlıq göstərdilər: "Məhz Ali Baş Komandanın rəhbərliyi və Azərbaycanın gənc əsgərlərinin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Prezident İlham Əliyev də müharibə zamanı gənclərimizin döyüşlərdə göstərdikləri şücaətdən geniş danışmış, onların vətən uğrunda fədakarlıqlarını yüksək qiymətləndirmişdir. Mən əminəm ki, Azərbaycan gəncliyi bundan sonrakı dövrdə də Azərbaycanının inkişafı üçün əllərindən gələni edəcək və prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcəklər. Bir məqamı da xüsusi olaraq qeyd etmək istərdim. İşğal altında olan torpaqlarımızın azad olumasında iştirak edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, prezident İlham Əliyevin idarəçiliyinin məzunlarıdır. Fürsətdən istifadə edib bütün gəncləri 2 fevral - Gənclər Günü münasibətilə təbrik edirəm. Gənclər daim hərəkətdə olmalı, özünün kəşf etdiyi istiqamət üzrə potensialını artırmalı və vətəninə, dövlətinə bağlı olmaqla qüsursuz xidmət etməlidir. Ölkəmizin davamlı inkişafı üçün onların üzərinə böyük yük düşür".

# “Paşinyan Türkiyəyə rəqiblərini zəiflətməklə gedir”

**_“Mart ayında Türkiyənin Antalya şəhərində ”Diplomatiya Forumu”nun keçirilməsi planlaşdırılır. Bu forumda Türkiyə Azərbaycan və Ermənistan nümayəndələrini dəvət edərək üçtərəfli və ikitərəfli görüşün keçirilməsinə çalışır”. Bunu politoloq Anar Əliyev ”Səs” qəzetinə açıqlamasında bildirib._**

A.Əliyevin sözlərinə görə, görüşün keçirilməsində əsas məqsəd Türkiyənin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında ikitərəfli formatın yaradılmasıdır: ”Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi və mümkün razılaşmaların əldə olunması eləcə də, sərhədlərin demarkasiya və delimitasiyası, kommunikasiya xətlərinin açılması, ”Zəngəzur dəhlizi”nin Ermənistan ərazisindən keçəcək hissəsində tikinti işlərinin başlanması məsələlərin müzakirəsi ilə bağlı Ermənistan və Azərbaycan arasında iki tərəfli formatın yaradılması və bu format çərçivəsində heç bir əlavə tərəflərin iştirakı olmadan müzakirələrin aparılmasına nail olmaqdır. Türkiyənin irəli sürdüyü bu format Cənubi Qafqazda sülhün təmin olunmasına və Ermənistanla Azərbaycan arasında əlaqələrin bərpa olunması prosesinə müsbət təsir göstərə bilər. Görüşə Ermənistan tərəfi Nikol Paşinyanın timsalında həm Soçi görüşündən, həm Brüssel görüşündən fərqli olaraq daha rahat şəkildə onun addımlarına və qəbul edəcəyi qərarlara etiraz edə biləcək qüvvələri müəyyən qədər zəiflətməklə gedir. Buna görə də, hesab edirəm ki, Paşinyan bu görüşdə Ermənistan - Azərbaycan arasında eləcə də Ermənistan - Türkiyə arasında münasibətlərin tənzimlənməsi ilə bağlı daha real, daha adekvat bəyanatlar, fikirlər səsləndirə bilər. Nəyə görə? Çünki Ermənistanda Nikol Paşinyanın Azərbaycanla münasibətlərin tənzimləməsinə problem yarada biləcək kifayət qədər böyük qüvvələr mövcud idi, xüsusilə də, hakimiyyətin bəzi qollarında, məsələn Müdafiə Nazirliyində, Xarici İşlər Nazirliyində eyni zamanda,



keçmiş prezident Armen Sarkisyanda Nikol Paşinyanın atdığı addımlara bir çox hallarda problemlər yaratmağa çalışırdılar. İndiki halda Paşinyan demək olar ki, hakimiyyət qollarını hamısını tam nəzarət altına almaq ərəfəsindədir. Eyni zamanda, özünə yaxın bir nazir postuna oturtduğu şəxsində tezliklə Ermənistan prezidenti seçilməsinə nail ola biləcəkdir. Bu fonda Paşinyanın belə bir görüşə getməsi onun daha sərbəst hərəkət etməsinə və daha sərbəst real bəyanatlar, qərarlar qəbul etməsinə kömək etmiş olardı. Hesab edirəm ki, bu görüşdə Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi ilə bağlı xüsusilə də ”Zəngəzur dəhlizi”nin Ermənistan ərazisindən keçəcək hissəsində işlərin başlanması və sərhədlərin delimitasiyası ilə məşğul olacaq birgə komissiyanın yaradılması ilə bağlı irəliliyə doğru addımlar atıla bilər. Bu görüş Ermənistan və Azərbaycan arasında tez-tez özünü göstərən təxribat hallarının, xüsusilə də revanşist qüvvələrə yaxınlığı ilə seçilən erməni generaltetinin nəzarəti altında olan ordu tərəfindən törədilən belə təxribatların təhlil edilməsi və qarşısının alınması ilə bağlı da fikir mübadiləsinin aparılmasına və müəyyən bir ortaq məxrəcin əldə olunmasına gətirib çıxara bilər”.

A.Əliyev onu da bildirdi ki, Türkiyənin fəaliyyəti məhz Cənubi Qafqaza sülhün və iqtisadi inkişafın təmin olunmasına xidmət edir: ”Bu mənada Türkiyənin Cənubi Qafqazdakı proseslərə müdaxiləsi və təsir imkanları nə qədər genişlənərsə, ikitərəfli və çoxtərəfli görüşlər Türkiyənin iştirakı ilə nə qədər çox keçirilərsə, regionumuz və bölgəmiz üçün və bölgəmizdə münasibətlərin tənzimlənməsi üçün daha müsbət nəticələr doğurmuş olar. Hesab edirəm ki, bu formatın keçirilməsində bir müsbət tərəfdə Ermənistanı həm Rusiyanın müəyyən dairələrindən, həm də Qərbi Avropa dövlətlərinin təsirindən müəyyən qədər uzaqlaşdırılmasına və daha real Cənubi Qafqazda baş verən proseslərin ruhuna uyğun addımlar atmasına təşviq edə bilər”.

***Gülyana***

# Nikolun “peşəkar ordu” xülyası

***...Bu təzə müdafiə naziri Suren Papikyan da özünə toy eləməyə vaxt tapmışdı... Ermənistan Silahlı Qüvvələrinin yubileyi ərəfəsində dəm-dəsgahlı şadyanalıq eləməyi elə bil, buna deyən olmuşdu. İndi budur, toya gələn erməni hərbçilərin toyda yoluxduqları virusdan hələ də qurtula bilməyiblər. Hətta toya tək gələn bəzi hərbçilər toydan apardıqları virusla evdəki arvad-uşaqları da yoluxdurublar.***



...Və bu da Ermənistan Silahlı Qüvvələri günü İrəvanda keçiriləcəyi nəzərdə tutulan hərbi parad həsrətini ermənilərin gözündə qoydu. Bəli, bəli.. bu gün bəzi ermənilərin erməni xalqının adına layiq olmayan fikirlər... guya bayram günü hərbi parada çıxarmağa əsgər tapa bilməmələri ilə bağlı dedikləri ”ağ yalan”dan başqa bir şey deyil. İnanın ki, həmən gün İrəvanda hərbi parad keçirilməməsinin əsas günahkar və eyni zamanda səbəbkarı koronavirus pandemiyası oldu.

Amma, buna baxmayaraq erməni xalqı ümidsizliyə qapılmamalıdır. Çünki baş nazir Nikol Paşinyan yaxınlarda ”qəhrəman erməni oğullarından” təşkil olunacaq ”peşəkar erməni ordusu” yaradacağına söz verib. Doğrudur, bu iş hələ ki, yubanır. Deyilənə görə, baş nazir bunun səbəbini hakimiyyətdə təzə olması ilə əlaqələndirir. Maraqlıdır, məgər o bir azdan hakimiyyətdə olduğunun dördüncü ilini qeyd etməyəcəkmi? ...Amma, hər halda yenə də yaxşısını Nikol özü bilər...

Deməli, vaxtilə Ermənistanı regionun ən yaxşısı edəcəyinə söz verən baş nazir, bu gün Ermənistanda ”peşəkar ordu” yaratmaq istəyir? Sual olunur, hansı büdcəylə? Qeyd edək ki, Ermənistan kimi kasıb, ”cındırından cin hürkən” bir ölkə peşəkar ordu saxlamaq iqtidarında deyil. Deyim ki, bunu mən demirəm, dünya təcrübəsi göstərir... və təbii ki, Nikol Paşinyan da bunu bilməmiş olmaz. Belə ki, o bu gün Ermənistandan da qat-qat imkanlı dövlətlərin peşəkar ordu saxlamaq imkanında olmadığını cox gözəl bilir. Bəs, belə olan halda Nikolu belə bir açıqlama ilə çıxış etməyə vadar edən nədir?

Məsələ bundadır ki, bu gün Ermənistan durmadan borc dəliyinə doğru sürüklənir. Burada maraqlısı isə budur ki, ölkədə hamı sırf Nikolun gündəmi ilə bağlı bu ”coşqunluq halla” birləşməyə məhkum edilir. Əslində baş nazirin milli erməni marağına zidd olan bu uzaqgörən şəxsi gündəliyinin erməniləri hara apardığı isə artıq heç kimə sirr deyil.

Məsələn, hazırda əksər erməni mediası ölkədə Paşinyanın qızğın pərəstişkarlarının artıq nəzərəçarpacaq dərəcədə azaldığını yazırlar.

Qeyd edilməlidir ki, bu gün böhrandan uzaqlaşmağa can atan Paşinyan hökuməti cəmiyyəti hər şeyin qaydasında olduğuna, müharibədən sonrakı həyatın da yavaş-yavaş yaxşılaşdığına inandırmaq üçün yöndəmsiz cəhdlər edir. Və Paşinyan da canla-başla guya vəzifəyə təzə gəldiyini iddia edib, sələflərindən qalan dağıntıları təmizləyir.

Amma buna baxmayaraq, ermənilər bu gün Nikolun ”islahatlarını uğursuz”, gündüzlər çıraqla belə tapmayan ”islahatlar” olduğunu deyirlər. Onların dediyindən belə qənaətə gəlmək olur ki, Paşinyan hökuməti ilə bağlı hökm artıq verilib.

...Məhz buna görə də, bütün bunları hiss edən hakimiyyət bu gün getdikcə daha çox antiliberal şüarla ”daha çox dövlət!” şüarına meyllənir...və bu yolla da cəzalarının say və növ müxtəlifliyini artırırlar. Deyim ki, bunu da ermni mediası yazır.

...Belə görünür ki, bu gün ölkədə ictimai konsensus olmadığına görə də, Nikolun siyasi bəyanatlarının tonu da getdikcə apokaliptik xarakter alır...elə onun yaratmaq istədiyi ”peşəkar ordu” da bu qəbildəndir.

***Ağasəf Babayev***



RÖVŞƏN

# Rusiya sülhməram(SIZ)lıları bununla nə demək istəyirlər?

***44 günlük müharibədən sonra məhz Azərbaycanın etiraz etməməsi sayəsində Rusiya Müdafiə Nazirliyi tərəfindən Qarabağa təhkim olunmuş sülhməramlı kontingentinin müvəqqəti (!!!) nəzarətləri altındakı ərazilərimizdə baş verən son olay təbii və haqlı olaraq Azərbaycan cəmiyyətini hiddətləndirdi. Məlum oldu ki, həmin bölgələrdən keçən və inşaat materialları daşıyan yük avtomobillərimiz yalnız ruslar tərəfindən deyil, həmçinin erməni separatçıları tərəfindən də yoxlamalardan keçir, özü də dərin yoxlamalardan (?!)***

Və bu faktın bilavasitə Rusiya MN-nin rəsmi saytında videogörüntülərlə əks olunması artıq bir sıra sualları yaratmağa başladır. Belə ki, bir müddət əvvəl yenə də (!!!) rusların qoruması altındakı erməni separatçılarının rahat şəkildə özlərinə müdafiə istehkamları quraraq açıq-aydın silahlı münaqişəyə hazırlaşdıqlarını sübut edən kadrlar yayıldı. Bundan əvvəl isə separatçı-quldurlar bir neçə dəfə təxribat-diversiya planlarını icra etməyə cəhdlər göstərdilər və nəticədə öz həyatlarından oldular, lap dəqiq desək, cəhənnəmə göndərildilər.

Şuşaya daxil olan postumuzda dayanan hərbçilərimizə qarşı terror olayı törətmək istəyən daha bir erməni isə ”xalaxətrinqalmasın” görüntüsü yaradılmaqla guya saxlanılaraq istintaqa cəlb edildi, özü də separatçıların nəzarətində! Halbuki, həmin cinayət bilavasitə beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycan ərazisində baş vermişdi (?!).

İndi isə haqqında bəhs etdiyimiz hadisə artıq açıq-aşkar göstərir ki, təxribatçı əməllərin yaradılmasına səbəb yaradan tərəf, məhz və məhz Rusiya sülhməramlılarıdır! Artıq el dili ilə desək, yaxa-başı kənara çəkməyə də yer yoxdur, çünki həmin videokadrlar rəsmi (!) şəkildə Rusiyanın Müdafiə Nazirliyinin saytında yerləşdirilib!

Artıq bütün bunlardan sonra yumşaq ifadə etsək, Rusiya ”sülhməramlılarına” həmin ifadə ilə deyil, sülhməram(SIZ)lıları xitab etmək daha məqsədəuyğun olardı. Misal üçün, həmin sülhməram(SIZ)lılar Laçın dəhlizindən keçən erməni maşınlarını ümumiyyətlə yoxlamırlar. Əksinə, əziz-xələfləri kimi əzizləyib xoşgəldin deyirlər. Hələ bu harasıdır? Rusların ötən ilin martın 8-də - beynəlxaqlq qadınlar günündə erməni haxçilərinə gül buketləri təqdim etmələri isə ucuz xarakterli artistlikləri ilə yadda qaldılar. Milli leksikonumuzla ifadə etsək, lap ətimizi tökdülər...

Nəticədə, ermənilər Laçın dəhlizindən silah da keçirirlər, top da, tüfəng də!

İndi, qolunda sarsaxın əski parçasını əks etdirən nişanı, belində silahlı olan erməni separatçısının, terrorçusunun sülhməram(SIZ)lılarla birgə Azərbaycan maşınlarını yoxlamasını necə qiymətləndirməliyik? Deməliyik ki, çox düzgün edirlər və belə də olmalıdır, yoxsa bu qanunsuzluqlara qarşı sərt, birdəfəlik və yekun addımlar atılmalıdır?

Bu sülhməram(SIZ)lıların ərazilərimizdə qalmaması, 3 il sonra, daha yaxşı olardı ki, vaxtlarından əvvəl (!!!) ölkə ərazilərimizi tərk etmələri üçün ən münbit faktdır. Əks halda biz bunların qarşıda daha betər başıpozuqluqlarının şahidlərinə çevriləcəyik.



# Ermənistanda anti-Rusiya etirazları şiddətlənir

*Ermənistanda mövcud siyasi böhran və böhran daxilində cərəyan edən çoxsaylı daxili qarşıdurma və ziddiyyərlər getgedə şiddətli hala keçir. Artıq kifayət qədər məlumdur ki, ölkənin hazırkı hakimiyyəti "Qərbin uşaqları" kontekstində təqdim olunur və o da maraqlıdır ki, Nikol Paşinyan hökumətinin "məxməri inqilab" vasitəsi ilə iqtidara yiyələnməsinin də kökündə anti-Rusiya şüarları dayanırdı. Məhz bu vasitə ilə devrilmiş Serj Sarqsyan hakimiyyətinin belə vəziyyətə düşməsinin də əsas səbəblərindən biri Ermənistanın Rusiyanın qeyri-rəsmi quberniyasına çevrilməsi faktı oldu.*



Beləliklə, qərbyönümlü Paşinyan siyasi çevrəsi hakimiyyəti ələ keçirər-keçirməz dərhal Kreml əleyhinə sərt, hətta təhqirlər dolu fikirlər, bəyanatlar çoxalmağa başladı. Açığını desək, bu kimi məsələlərdə günahı yalnız Paşinyanın üzərinə yıxmaq da doğru olmazdı. Belə ki, bu gün Ermənistanın baş nazirini xəyanətkar adlandıranların bir çoxu "məxməri inqilab" zamanı onun dəstəkçiləri sırasında yer alırdılar.

### Müharibədə ağır məğlubiyyətlərinə görə Kremli hədəfə alan ermənilər Gümrüdə bir iki yaşayış binasının tikilməsi ilə Rusiyanın bütün "günahlarını" bağışlayacaqmışlar (?!)

Nəticədə, Ermənistanda anti-Rusiya meyillərinin artması növbəti faktları ortaya çıxarmağa başlayıb. Daha doğrusu, bu reallıq erməni KİV-lərində də get-gedə çoxalmaqdadır. Ölkənin tanınmış Armenianreport saytının siyasi analitki Tevos Arşakyanın "Şirakda Rusiya apreli" sərlövhəli məqaləsində isə qeyd edilir ki, Rusiya 44 günlük müharibədə Ermənistana lazımi dəstəyi göstərmədiyinə görə, indi öz "günahlarını" müxtəlif üsullarla yumalıymış. Əslində, bu məqamda açıq-aşkar erməni xislətinin bariz həyasızlıq nüunəsini görməmək olmur. Baxaq-görək nə yazır erməni siyasi analitiki.

SİTAT: "Rusiya öz günahını vacib addım atmaqla - zəlzələdən əziyyət çəkmiş gümrülülərə bir, ya da iki yaşayış binası inşa etməsi ilə yuya bilər" (?!). Təsəvvürünüzə gətirirsinizmi? Müharibədə ağır məğlubiyyətə uğramış ermənilər bir iki yaşayış binasının tikilməsi ilə Rusiyanın bütün "günahlarını" bağışlayacaqmışlar! Halbuki, Rusiya hələ müharibə dövründə rəsmi şəkildə bəyan etmişdi ki, Azərbaycan öz ərazilərində müharibə aparır və heç bir halda bu savaşa müdaxilə etməyə hüququ yoxdur. Bu, öz yerində...

Erməni KİV-i: "Ruslara yarınmaq marağı düşüncə və şəxsi ləyaqətdən daha üstün oldu"

Amma gəlin keçək digər mətləblərə. Tevos Arşakyan özünün anti-Rusiya xarakterli məqaləsində xüsusilə xatırladır ki, aprelin 3-də Ermənistanla Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. SİTAT: "Görünən budur ki, ölkədə öz həll saatlarını gözləyən nəhəng problemlərin sayı tükənməz dərəcədədir, minlərlə ailələr yaxınlarda baş vermiş müharibədə itirdikləri qohumlarının, əzizlərinin matəmlərini saxlayırlar, bütün Ermənistan daxili siyasi və sosial-iqtisadi turbulentlikdə (boşluqda-R.R.) qalır, eləcə də bizim cəmiyyətdə son dövrlərdə Rusiyaya qarşı (konkrert olaraq 2016-cı ilin aprel müharibəsindən sonra-T.A) get-gedə pisləşir - belə bir kəskin neqativ fonda mövcud tarixlə bağlı təntənəli tədbirlərin keçirilməsini təxirə salmaq lazımdır. Lakin belə olmadı, ruslara yarınmaq marağı düşüncə və şəxsi ləyaqətdən daha üstün oldu".

### Ermənistan-Rusiya diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü erməniləri niyə qıcıqlandırır?

Bu ifadələrdən belə bir nəticə hasil etmək olar. Deməк, 30 il boyunca Rusiya Ermənistanı bəslədi, ayaqda saxladı, üstəlik, onu da etiraf edək ki, Qarabağın işğalı dövründəki prosesdə də bu və ya digər şəkildə dəstəyini əsirgəmədi, silahlandırdı, iqtisadiyyatının tərkib hissəsi kimi tamamilə çökməsinə imkan vermədi və s. Bütün bunlardan sonra beynəlxalq qanun və hüquqlar çərçivəsində Azərbaycan dövlətinin və xalqının qətiyyəti öz sözünü dedi, Qarabağ torpaqları azad olundu. Hətta regionun aparıcı gücü sayılan Rusiya belə Azərbaycanın qətiyyəti qarşısında dayanmadı və nəticədə Rusiyanın geriyə çəkilməsi bu gün Ermənistanda anti-Rusiya təlatümlərini artırır, ölkənin pisyaxşı ayaqda qalmasında Rusiyanın dəstəyi isə artıq zibil yeşiyinə atılır...





Erməni siyasi analitki davam edir: "Bugünlərdə Şirakın vilayət administrasiyası erməni-rus diplomatik münasibətlərinin qurulmasının 30 illiyi münasibəti ilə bir sıra tədbirlərə hazırlaşır. Bu haqda Şiraka səfər edən Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinə vilayətin qubernatoru Nazeli Baqdasaryan deyib.

Sonuncu əsasən deyib ki, Rusiyanın hərbi bazasında Açıq qapı günü keçiriləcək, vilayətin bütün məntəqələrindəki icmaların mədəniyyət tədbirlərinin keçirilməsi planlaşdırılır, muzeylərdə rusdilli ekskursiyalar təşkil ediləcək, Açemyan adına dram teatrında rus dilində səhnə qoyulacaq, Gümrüdə erməni-rus dostluğundan bəhs edən xiyaban salınacaq, Artik şəhərində isə dövlət vəsaitləri hesabına Qaqarin adına xiyaban qurulacaq. Belə böyük tədbirlər silsiləsinə Rusiyaya loyal olan belə ruslar belə qibtə edə bilərlər. Lakin bizim hakimiyyət rus sapoqunu (çəkməsini-R.R.) daha sulu şəkildə yalamağa səy göstərirlər və bununla da planetdə hər kəsdən öndə oldular".



Beləliklə, bütün bunları öz təbirincə hədəfə alan erməni siyasi analitiki və yazarı qeyd edir ki, 30 illiklə bağlı tədbirlər az qala dövlət əhəmiyyətli tədbir kimi keçirilir və bu dərəcədə Rusiyaya bağlılıq Ermənistanı daha ağır uçurumlara doğru sürükləyir.

### Tevos Arşakyan: "Yadınızdadırmı rusların Gümrüdəki hərbi baza komandanlığı rus hərbçisi Valeri Premyakovun hərbi hissənin ərazisində erməni ailəsini qətlə yetirdiyinə görə erməni vəkillərini və hüquq müdafiəçilərini həmin əraziyə buraxmırdı?"

Yeri gəlmişkən, Arşakyan bu xüsusda illər əvvəl, hələ Serj Sarqsyanın prezidentliyi dövründə Gümrüdə baş vermiş qətliam olayını xatırladıb. SİTAT: "Yadınızdadırmı rusların Gümrüdəki hərbi baza komandanlığı rus hərbçisi Valeri Premyakovun hərbi hissənin ərazisində erməni ailəsini qətlə yetirdiyinə görə erməni vəkillərini və hüquq müdafiəçilərini həmin əraziyə buraxmırdı? Guya ora Rusiyanın suveren ərazisidir və erməni qanunları qüvvədə deyil. Baxmayaraq ki, baza bizim torpaqdadır və erməni dövlət büdcəsindən maliyyələşdirilir. İndi isə orada Açıq qapı günü keçirilir - hörmətli ermənilər buyurun-gəlin, xoş gəlirsiniz. Maraqlıdır, hansı gümrülü Avetisyan ailəsinin faciəsini unudaraq Açıq qapı günü suşki və bulka yemək üçün rus hərbi bazasını ziyarət edəcək?", deyə erməni müəllifi anti-Rusiya xarakterli məqaləsində yazır.

Bir tərəfdən Rusiyanı ittiham edir, hədəfə alır, hətta təhqir edir, digər tərəfdən isə rusların Gümrüdə zəlzələdən zərər çəkmiş və bu günə qədər keçən 34 ildə vaqonlarda yaşayan ermənilər üçün binaların inşasını tələb edir

Yazının əvvəlində də qeyd etdiyi və üzərindən 34 il keçən dağıdıcı zəlzələni xatırladan erməni siyasi yazarı tədbirlərin keçirilməsinin yerinə hələ də vaqonlarda yaşayan Gümrü əhalisi üçün beşmərtəbəli binaların tikilməsini istəyir, özü də Rusiya tərəfindən! Baxın, bir tərəfdən Rusiyanı ittiham edir, hədəfə alır, hətta təhqir edir, digər tərəfdən isə rusların Gümrüdə zəlzələdən zərər çəkmiş və bugünə qədər keçən 34 ildə vaqonlarda yaşayan ermənilər üçün binaların inşasını tələb edir. Üstəlik, sonda onu da iddia edir ki, artıq Kremldən nə isə gözləməyə dəyməz...

Bütün bu kimi faktlar isə bir daha sübut edir ki, Ermənistan cəmiyyətində kəskin anti-Rusiya xarakterli antipatiya hissləri alovlanır və nəticədə günahı da özlərində deyil, başqalarında axtaran ermənilər unudurlar ki, məhz rusların sayəsində onların saxta dövlətçilikləri bugünə qədər mövcudluğunu qoruyub-saxlayıb. Ancaq belə görünür ki, Rusiya Ermənistanda qalmaqda davam edəcək və həmin reallıq Kremlin İrəvan üzərindəki diktəsini dərinləşdirəcək. Hətta belə davam edərsə, Ermənistanın çox yaxın illərdə müstəqilk ölkə kimi regionda qala bilməsi ehtimalı da tükənəcək. Hər halda rus ayısı da öz işini görür və hadisələr də buna doğru inkişaf edir...

**Rövşən RƏSULOV**




Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi qloballaşma kontekstində

*İlham Əliyev: "Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır"*

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meyilləri də özünü qabarıq göstərir.

## Milli-mənəvi dəyərlərin aşılanmasında məktəblərin rolu

Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək əsas vəzifələrdəndir.

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, "Gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Respublikanın gələcək taleyi onun gənclərindən asılı olduğu üçün təhsildə aparılan islahatlar milli ənənələrimizə, milli dəyərlərimizə söykənərək soykökünə bağlı şəxsiyyətin formalaşdırılmasına xidmət etməlidir. Müasir tərbiyədə məktəbli-müəllim-valideyn münasibətlərinin yeni prizmada tənzimlənməsi, tərbiyə işində ideal məqsədin məzmununun müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşməsi humanitar fənlərin məzmununda ifadə olunmuş milli-mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir. Milli soykökə qayıdış, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir.

## Milli-mənəvi dəyərlərin ailədən formalaşması

Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Əsas dəyərlər məhz ailədə doğulur və formalaşmağa başlayır. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsindən əsas rollardan birini də ailə oynayır. Ona görə də, ailələrdə bu məsələlərə viddi fikir verilməlidir.

Təlim-tərbiyə işinin təşkilində dini maarifləndirilmənin də rolunu xüsusi qeyd etmək lazımdır. Bütün əxlaqi kateqoriyaların şərhi yolu ilə gənclərə sağlam həyat tərzi, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rolu vardır. Eyni zamanda, vətəndaşlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından dövlət atributlarına-Azərbaycanın bayrağına, himninə, gerbinə ehtiram və hörmətin vacibliyi təbliğ edilməlidir.

## "Gənclər milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır"

Ümummilli lider bunu belə təsvir etmişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir".

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və çıxışlarında həmişə qürurla söylənilirdi. Heydər Əliyev göstərirdi ki, milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur.

Bu etiraz və narazılıqlar haqqında mətbuatda cıxışlar milli-mənəvi dəyərləri qorumaq cağırışına cevrildiyi bir vaxtda mərhum prezident, ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: "Fürsətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da on-



dan ibarətdir ki, biz oz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Hec vaxt iki xalq bir-birinə bənzəməz və oxşar dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik".

## Milli-mənəvi dəyərlər deyilərkən nələr nəzərdə tutulur?

Milli-mənəvi dəyərlər, əlbəttə, çox geniş məfhumdur. Lakin burada birinci növbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır. Müasir Avropada və Amerikada bir sıra xalqların milli facıə, qlobal fəlakət kimi yaşadığı müasir əxlaqi demoqrafik bəlalara qarşı ən yaxşı sipər milli-mənəvi dəyərlərimizdir.

Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin həyata kecirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması, onun məhvinə gətirib cıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan kecə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə bilək.

Azərbaycan dünyada multikulturalizm dəyərlərinin nümunəsi kimi, etnik, dini, sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər, həmrəy və qarşılıqlı dostluq şəraitində yaşadığı unikal ölkələrdəndir. Bu bəşəri dəyər olmamışdan əvvəl bizim milli dəyərimiz olub- lap qədimdən bu ənənə yaşadılıb bu günlərə kimi davam etdirilir. Hazırda isə bu, həm dövlət siyasəti, həm də ictimai münasibətlər sistemi kimi inkişaf etdirilir.

Ölkəmizin gələcəyi gənclərdən asılıdır. Milli-mənəvi dəyərlərimizi də, gələcək elmi-texniki, sosial-iqtisadi inkişafımızı da gəncləri qoruyacaq, təmin edəcək, yaşadacaq.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

3 fevral
2022-ci il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Rəcəb ayında nələrə diqqət edilməlidir?

***"Rəcəb ərəb mənşəli söz olub hərfən "saygı göstərmək" mənasını bildirir. Hicri-qəməri təqvimin 7-ci ayı olan Rəcəb islamda dörd haram aylardan biridir. Bunun haram aylardan olmasının səbəbi məhz həmin ayda müharibə və basqın etməyin qadağan olmasıdır". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru İbrahim Quliyev deyib.***



Onun sözlərinə görə, Rəcəb islamdan öncəki cahiliyyə dövründə də haram aylardan biri idi: "Cahiliyyə ərəbləri Rəcəb ayı daxil olarkən savaş və qarətlərə son qoyar, özlərinə məxsus dini ayinlərini icra edərdilər. İslam dinində də haram aylardan hesab edilmiş, bu aya hörmət göstərmək vacib buyrulmuşdur. Uca Allah Qurani-Kərimin müxtəlif surələrində, o cümlədən də "əl-Maidə" surəsinin 2-ci ayəsində "Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə (həcc mərasiminə), haram aya (rəcəb, zülqədə, zülhiccə və məhərrəm aylarına)... hörmətsizlik etməyin!" - deyə buyurmaqla rəcəb ayına hörmət edilməsini əmr etmişdir. Bu da onu göstərir ki, haram aylarda edilən günah və ya savab əməllər digər aylara nisbətən daha da artıqlaması ilə yazılır.

Rəcəb ayının üstünlük və fəzilətləri haqqında çoxsaylı hədis vardır. Həmin hədislərin birində həzrət Peyğəmbərin "İlahi, bizə rəcəb və şaban aylarında bərəkət ver və bizi ramazana çatdır!" - deyə dua etməsi onu göstərir ki, bu ay digərlərinə nisbətən mübarək və bərəkətli olması ilə seçilir. Həmçinin digər bir hədisdə "Rəcəb Allahın əzəmətli ayıdır. Heç bir ay onun əzəmət və hörmətinə yetişə bilməz. O ayda savaş haramdır, çünki o Allaha məxsusdur. Şaban mənim, ramazan isə ümmətimin ayıdır. Agah olun! Hər kəs Rəcəb ayında bir gün oruc tutsa, Allahın böyük razılığını əldə etmiş, özünü Onun qəzəbindən uzaqlaşdırmış və Cəhənnəmin qapılarını öz üzərinə bağlamış olar", - deyə buyurması bu ayın Uca Allaha məxsus olduğunu bildirir.

Başqa bir hədisdə isə "Rəcəb ayının digər aylardan üstünlüyü Quranın digər sözlərdən üstünlüyü kimidir" şəklində nəql olunması onun üstünlüklərinə dəlil kimi göstərilir".

İbrahim Quliyev sözlərinə belə davam edib: "Rəcəb ayının xüsusiyyətlərindən biri də bu aya məxsus bəzi ayinlərin icra edilməsi ilə bağlıdır. Həmin hədislərdə rəcəb ayında oruc tutmaq, qurban kəsmək, sədəqə vermək və s. savab əməllərlə məşğul olmaq tövsiyə edilmişdir.

Bütün bu deyilənlərdən başqa, rəcəb ayının ilk cümə gecəsi "Rəğaib" adlanır. Müsəlman alimlərinin bəzisi bu gecədə ibadət etməyin, namaz qılmağın və digər savab əməllərlə məşğul olmağın çox böyük savab qazandıracağını söyləmişlər. Rəcəb ayında mübarək gecələrdən biri də həzrət Peyğəmbərin səmaya yüksəldiyi Merac gecəsidir. Bəzi rəvayətlərdə bu gecənin rəcəb ayının 27-ci gecəsi olduğu deyilir. Bütün bu qeyd edilənlər onu göstərir ki, rəcəb ayı müsəlman mədəniyyətində xüsusi ehtirama layiq görülmüş, özündə bir çox mənəvi keyfiyyətləri əks etdirən mübarək və fəzilətli bir aydır".

***Ayşən***

# Təhsil müəssisələri bağlanır?

***"Təhsillə bağlı qapanmaların olması məsələsi hal-hazırda gündəmdə deyil. Sadəcə olaraq, üçüncü doza peyvəndin olması ilə bağlı orta və ali ixtisas təhsil müəssisələri 18 yaşın üzərində olan şəxslərə tələb var". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.***

Onun sözlərinə görə, fevral ayının 15-dən etibarən 3-cü doza peyvənd tələbi qüvvəyə minəcək: "Amma ümumi təhsilin qapadılması və yaxud da müvafiq olaraq müəyyən müddətə karantin rejiminin tətbiq olunması ilə bağlı müzakirə yoxdur. Fevral ayının 16-dan etibarən ali və orta ixtisas təhsil müəssisələrində dərslər başlayacaq. Hal-hazırda yalnız orta ümumtəhsil müəssisələrində dərslər keçirilir. Hər hansı bir məktəbdə müvafiq virusa yoluxma faktı varsa, o məktəbin özündə 14 gün karantin elan olunur və distand təhsilə keçirilir. Ona görə də düşünürəm ki, hər hansı qapadılmalara gedilməsi hal-hazırda real deyil".



# Kivi visseral piydən azad olmağa kömək edir?

***Aparılmış tədqiqat göstərib ki, C vitamini ilə zəngin olan kivi visseral piyin ərimə sürətini artırır. Visseral piy qarın boşluğunda yerləşir və orqanizmdə hormonların işini tənzimləyir. Onun həddindən artıq olması potensial təhlükələrlə nəticələnə bilər: xüsusilə, ürək xəstəlikləri riski artır, çünki visseral piyin tərkibinə spesifik kimyəvi maddələr daxildir.***



AZƏRTAC "Medikforum"a istinadla xəbər verir ki, alimlərin qənaətinə görə, bəzi məhsulların qəbulu bu cür piylərin həddindən artıq miqdarından azad olmağa orqanizmə kömək edir - bununla əlaqədar olaraq onlar kivini qəbul etməyi tövsiyə edirlər.

"Nutrients" jurnalında dərc olunan tədqiqat nəticələrinə görə, kivi şəkərin qanda səviyyəsinə nəzarəti yaxşılaşdırır, bu isə piyin və çəkinin itirilməsi ilə bağlıdır. Tədqiqatda iştirak edənlər hər gün 12 həftə ərzində 2 kivi qəbul edirdilər. Bu müddət bitdikdə insanlarda plazmada C vitamininin səviyyəsinin əhəmiyyətli dərəcədə artımı, həmçinin diastolik və sistolik qan təzyiqi göstəricilərinin azalması, bel və bel-omba hissəsi nisbətində azalma qeydə alınmışdı.

"Kivinin tərkibinə həzmi yaxşılaşdıran aktinidin fermenti daxildir. Yaxşı həzm və davamlı çəki azalması bir-birini yaxşı tamamlayır", - deyə tədqiqatçılar qeyd edirlər.

Alimlərin fikrincə, azı 69 qram çəkidə bir dənə kivinin tərkibində təxminən 64 milliqram C vitamini var. Məhz o fiziki iş zamanı bədəndə piyin əriməsini sürətləndirir. Bundan başqa kivi orqanizmdən azad radikalları xaric etməyə kömək edən xolin, lyutein və zeaksantin də daxil olmaqla, digər antioksidantların yaxşı mənbəyidir. Tədqiqat müəlliflərinin fikrincə, kivinin qəbulu və müntəzəm fiziki məşğələlər visseral piyin miqdarını əhəmiyyətli dərəcədə azaltmağa qadirdir, C vitamini tərkibli məhsulların kifayət qədər qəbulu isə insanları yağ kütləsinin toplanmasına daha dayanıqlı edə bilər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600